


## ""TEKNOFEST" Türkiyə ilə həmrəyliyimizin növbəti nümayişidir"

10

## Güclü Azərbaycan - Güclü Türkiyə: Liderlərin örnək QARDAŞLIQ BİRLİYİ!



3




# Səs

№ 095 (6536) 1 iyun 2022-ci il. Qiymәti 60 qәpik


# YouTube, yoxsa sosial şəbəkələrə transformasiya olunan terror təhlükəsi?









6

## Geosiyasi mənzərədən KƏNARDA QALAN ERMƏNİSTAN



11

## "Zaman keçdikcə reket mediadan birdəfəlik qurtulacağıq"



12

## Tüstülənən ölüm

Bu gün dünyada 1,5 milyarddan çox insan siqaret çəkir.




15

## Levandovski "Barselona" yolunda...



16

## Vatsap yazışmaları necə ələ keçirilir?





# Azərbaycan və Rusiya Prezidentləri arasında telefon danışığı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib. Telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli razılaşmalarının regionda dinc həyatın nizamlanması və sabitliyin möhkəmlənməsi, iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası ilə bağlı konkret məsələlərin həlli xüsusi qeyd olunmaqla icrasının gedişi nəzərdən keçirilib.**

Prezident İlham Əliyev mayın 22-də Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü barədə məlumat verib.

Söhbət zamanı iqtisadi-ticari sahədə ikitərəfli əməkdaşlığın bir sıra aktual aspektləri müzakirə edilib. Hər iki tərəfin Rusiya-Azərbaycan strateji tərəfdaşlığının, o cümlədən Azərbaycan Prezidentinin 2022-ci ilin fevralında Moskvaya rəsmi səfərinin yekunları nəzərə alınmaqla, bundan sonra da dərinləşməsi əzmində olması təsdiq edilib. Müxtəlif səviyyələrdə müntəzəm təmasların davam etdiriləcəyi qeyd olunub.


رئيسا أذربيجان وتركيا يحتفلان بـ"عيد الإستقلال 30.. ومهرجان تكنوفست".. تجذيراً للأخوة وسُمُوْ العلاقات البينية

# Misir və Qətər KİV-i Azərbaycan və Türkiyə liderlərinin "TEKNOFEST Azərbaycan" festivalında iştirakından yazır

Misir və Qətər KİV-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirakı barədə xəbərlər yayımlanıb.

Misirin "Əl Diplomasi" portalında AZƏRTAC-a istinadla yayımlanan xəbərdə Azərbaycan və Türkiyənin dövlət başçılarının festivalda çıxışları, həmçinin liderlərin görüşü haqqında məlumat verilib. Portalın materialında diqqətə çatdırılıb ki, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan ikitərəfli əlaqələrin inkişafı ilə yanaşı, regional sülhün və təhlükəsizliyin təmin edilməsi məsələlərini də müzakirə ediblər.

Həmçinin Misirin "Əl Masr əl Yom" qəzeti və Qətərin "Marsalqatar" portalında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışından əsas məqamlar yer alıb. Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Türkiyənin dövlət başçısı ölkəsinin müharibədə olduğu kimi, sülh dönəmində də Azərbaycanın yanında olduğunu, regionda sülh və sabitlik üçün Prezident İlham Əliyevin Ermənistanla qurmaq istədiyi dayanıqlı sülhü fəal şəkildə dəstəklədiyini bəyan edib. O əlavə edib: "Əziz Qardaşımın da dediyi kimi, bölgəmizdə yeni bir səhifə açmağın vaxtı çatıb. Hədəfimiz dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgəmizdə sabitliyin möhkəmləndirilməsidir. Bu hədəflərimizin həyata keçirilməsi üçün Azərbaycan ilə sıx həmrəylik, təmas və koordinasiyamızı davam etdirəcəyik".

# "Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevrilir"

*Prezident İlham Əliyev ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşavirini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Cənub Qaz Dəhlizinin fəaliyyətinə toxunuldu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində və qazla təmin olunmasının şaxələndirilməsində rolu vurğulandı. Ölkəmizdən Avropaya qaz ixracının artırılması ilə bağlı fikir mübadiləsi aparıldı.***

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, qlobal enerji layihələrinin həyata keçirilməsində, o cümlədən Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşdırılmasında ABŞ hökumətinin Azərbaycana verdiyi daimi dəstək yüksək qiymətləndirildi. Azərbaycanda elektrik enerjisi və bərpaolunan enerji sahəsində həyata keçirilən genişmiqyaslı işlərdən danışıldı.

Söhbət zamanı Bakıda ənənəvi keçirilən Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin önəmi qeyd edildi və bu tədbirin energetika sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsinə töhfə verdiyi bildirildi.

## ƏRDOĞAN KARAKUŞ:

# "Can Azərbaycanı sevmək azdır, onun varlığını ürəklərdə yaşatmaq borcumuzdur"



**Azərbaycanın müstəqilliyindən və çoxşaxəli inkişafından çox məmnunuq. Şükürlər olsun ki, bu gözəl günləri yaşamaq bizlərə nəsib oldu. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının ildönümünün Ankarada təntənə ilə qeyd olunması hər bir türk üçün sevinc qaynağıdır. Can Azərbaycanı sevmək azdır, onun varlığını ürəklərdə yaşatmaq könlümüzün borcudur.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Təqaüddə olan Zabitlər Dərnəyinin (Türkiye Emekli Subaylar Derneği-TESUD) sədri Ərdoğan Karakuş ifadə edib.

Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" kəlamını xatırladan ehtiyatda olan zabit Ərdoğan Karakuş deyib: "Tarixlərə nur saçan Azərbaycan-Türkiyə qardaşlığı gələcək nəsillərə örnəkdir. Birliyimiz və həmrəyliyimiz Türk Dövlətləri Təşkilatı kimi əzəmətli bir qurumun yaranmasını təmin edib. Budur mübarizəmizin mənası: Bir olaq, diri olaq, bütün türk dövlətləri ilə birlikdə olaq!"

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı parlaq Qələbə sayəsində işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və bərpa prosesini Qarabağa böyük qayıdışın təntənəsi kimi dəyərləndirən Ərdoğan Karakuş "Bu Zəfər birliyimizin təntənəsidir. Azərbaycan böyük siyasi iradə ilə vandalların dağıdıb məhv etdiyi hər şeyi yenidən dirçəldir. Parlaq hərb Zəfəri ilə otuz illik işğala son qoyub öz yurduna sahib olan Azərbaycan qurub yaratmaqla da nələrə qadir olduğunu bütün dünyaya nümayiş etdirməkdədir", - deyə fikirlərini davam etdirib.

# Güclü Azərbaycan - Güclü Türkiyə: Liderlərin örnək QARDAŞLIQ BİRLİYİ!

***Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak ediblər.***

28 May - Müstəqillik Günün ərəfəsində başlayan "TEXNOFEST Azərbaycan" festivalı Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və "Türkiye Teknoloji Takımı" - T3 Vəqfinin təşkilatçılığı ilə 2018-ci ildən etibarən keçirilən, bu il beşincisi düzənlənən "TEKNOFEST" Aerokosmik və Texnologiya festivalının zamanlamasında, bu anlamlı festivalın "Şuşa Bəyannaməsi"nin imzalanması və qanun qüvvəsinə minməsindən sonraya təvafüq etməsi ilə bağlıdır. 4 gün davam edən festival dünyanın dörd tərəfindən diqqətləri Bakıya, Azərbaycana yönəltməklə Azərbaycan-Türkiyə qardaşlıq, dostluq, qonşuluq və strateji müttəfiqliyinin daha bir təntənəsidir! "TEKNOFEST Azərbaycan"ın təşkilatçıları Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və "Türkiye Teknoloji Takımı"dır.

Və bu faktoru da vurğulamaq lazımdır ki,



*Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalında iştirakı bu birliyin dünyaya bir daha nümayişidir*





TƏHLİL

2021-ci il fevralın 2-də Azərbaycan Prezidenti İlham Əliyev "Gənclər Günü"ndə imzaladığı Sərəncamla təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strateji sənədində çağdaş innovasiyalar məkanının qurulması məsələsi bu gün 28 May - Müstəqillik Günü ərəfəsində gerçəkləşən "TEKNOFEST Azərbaycan"ın keçirilməsi innovasiya sahəsində uğurlu inkişafı təsdiq edir. Festival çərçivəsində 8 texnoloji yarışma, 3 beynəlxalq tədbir keçirilib, ümumilikdə 1000 komandanın, Azərbaycanın 52, Türkiyənin isə 40 bölgəsini təmsil edən gənclərin festivala qatılması özlüyündə çox şey ifadə edir...

Keçirilən tədbirdə Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar, Festivalda çıxış edən dünyaşöhrətli türkiyəli alim, Nobel mükafatı laureatı professor Əziz Səncər çıxış edərək bildiriblər ki, "TEKNOFEST" festifalı müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutmaqla, ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyidir.

### "TEKNOFEST" AZƏRBAYCAN VƏ TÜRKİYƏ LİDERLƏRİNİN QARDAŞLIĞININ BİR DAHA DÜNYAYA NÜMAYİŞİ

Qeyd edək ki, iki dost, qardaş, müttəfiq ölkələr - Azərbaycan və Türkiyə növbəti dəfə sarsılmaz birlikləri, həmrəylikləri ilə növbəti dəfə dünyanı heyrətləndirdilər. Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı gələcəyimiz olan gənclərin bu qardaşlığa verəcəkləri töhfələrin aydın mənzərəsini təqdim etdi. Festivalda Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı bu birliyin dünyaya bir daha nümayişi idi.

Azərbaycan Prezidenti İlham Əliyev Festivalda çıxışı zamanı bildirdi ki, bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır.

Bəli, dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.

### PREZİDENT İLHAM ƏLİYEV: "Müstəqillik günündə Prezident Rəcəb Tayyib Ərdoğanın bizimlə bərabər olması bizim üçün ikiqat bayramdır"

"Bu gün Azərbaycanda bayram günüdür, Müstəqillik Günüdür, bizim ən əziz bayramımızdır. Bu bayramı ikiqat bayram edən əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bizimlə bərabər olmasıdır". Bunu Prezident İlham Əliyev Bakıda keçirilən "TEKNOFEST- Azərbaycan" Festivalında çıxışı zamanı bildirib.

"104 il əvvəl müsəlman aləmində Azərbaycan xalqı ilk Xalq cümhuriyyətini qurmuşdur. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 2 ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi.

Ardı Səh. 4

# Güclü Azərbaycan - Güclü Türkiyə: Liderlərin örnək QARDAŞLIQ BİRLİYİ!

Əvvəli Səh. 3

Yalnız 1990-cı illərin əvvəlində Azərbaycanın dövlət müstəqilliyi bərpa edildi. 30 ildir Azərbaycan xalqı azad, müstəqillik şəraitində yaşayır, öz həyatını özü qurur və müstəqillik yolu ilə inamla gedir. Bu 30 il ərzində türk qardaşlarımız bizim daim yanımızda olub. Biz 30 il ərzində bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik. Bu gün Türkiyə və Azərbaycan yenə də bir yerdədir", - deyə dövlətimizin başçısı qeyd edib. Biz yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və edəcəyik ki, qabaqda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir. Bölgə və dünya üçün də çox önəmli faktordur".




## AZƏRBAYCAN PREZİDENTİ: "Türkiyə və Azərbaycan bir-birinə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrilib"

Dövlətimizin başçısı qeyd edib ki, bu gün ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq: "Mən dəfələrlə demişəm ki, Türkiyənin gücü, artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik",-deyən Prezident İlham Əliyev söyləyib: "Türkiyənin uğurlu inkişafı, ilk növbədə, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın adı ilə bağlıdır. Mən də öz fəaliyyətimdə həmişə çalışmışam ki, Azərbaycan xalqının və dövlətinin milli maraqlarını müdafiə edim və Azərbaycanın müstəqil siyasətini təmin edim. Bizim aramızdakı qardaşlıq bütün Türkiyə və Azərbaycan xalqına örnək olmalıdır".

Türkiyə və Azərbaycanın bundan sonra da yüksələn xətlə yalnız irəliyə gedəcəyinə əmin olduğunu bildirən Prezident İlham Əliyev çıxışını bu şüarlarla tamamlayıb: "Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı! Qarabağ Azərbaycandır!"







## AZƏRBAYCAN PREZİDENTİ: "TEKNOFEST-Azərbaycan" Türkiyə-Azərbaycan birliyinin növbəti nümayişidir"

"Bizim tariximiz parlaqdır və tariximizin ən önəmli anlarında biz bir yerdə idik. Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Azadlıq meydanına çıxmışdılar. Bunun təkrarını biz 2021-ci ildə Zəfər paradında gördük. Tarixi Zəfərimizdən sonra yenə də əziz qardaşımla birlikdə Azadlıq meydanında biz Türkiyə və Azərbaycan ordularının hərbi paradını qəbul etdik. Bu, birliyimizin təntənəsi idi, bu, bütün dünyaya verilən aydın mesaj idi. Biz bir yerdəyik, bir yerdə olacağıq, gücümüz də gündən-günə artacaq",-deyən dövlətimizin başçısı keçən ilə Milli Qurtuluş Günündə Prezident Rəcəb Tayyib Ərdoğanın bizimlə bir olmasına toxunaraq bildirib ki, bu, bir daha qardaşlığımızın, birliyimizin nümayişidir: "Keçən il Milli Qurtuluş Günündə - iyunun 15-də hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada idi. Bu da çox əlamətdar hadisə idi. 15 iyun da bayram günüdür, 28 may da bayram günüdür. Biz bu bayram günlərini bir yerdə qeyd etdik və tarixi Şuşa bəyannaməsini imzaladıq. Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı və bu müttəfiqlik özünü hər yerdə göstərir - siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində. Bu gün "TEKNOFEST" bizim birliyimizin növbəti nümayişidir".



## PREZİDENT İLHAM ƏLİYEV: "Əziz Sancar, Selçuk Bayraktar kimi insanlar gənclər üçün örnəkdir"

"TEKNOFEST"in hörmətli qonağı qismində Türk dünyasının böyük oğlu, dünya şöhrətli alim, Nobel mükafatı laureatı hörmətli Əziz Sancar da təşrif buyurdu. Əziz bəylə keçən görüşümü xatırlayıram. Mənə dedi ki, onun böyük arzusu Şuşaya getməkdir. Mənimlə görüşdən sonra Şuşaya getdi. Bildirdi ki, həyatda nəyə nail olmaq istəyibsə, ona nail olub". Bunu Prezident İlham Əliyev Bakıda keçirilən "TEKNOFEST-Azərbaycan" Festivalında çıxışı zamanı deyib.

"Gənclər üçün Əziz Sancar kimi insanlar örnəkdir, nümunədir - həm alim, həm vətəndaş, həm türkçü, həm vətənpərvər insandır. Siz gənclər Əziz bəyə oxşamağa çalışmalısınız", - deyə dövlətimizin başçısı qeyd edib.Selçuk Bayraktarı da səmimiyyətlə salamlayan Azərbaycan Prezidenti deyib: "Selçuk bəy nəinki "TEKNOFEST"in təşkilatçısı və təşəbbüskarıdır, Selçuk bəy və Bayraktarlar ailəsi dünyada çox məşhur bir ailədir. İkinci Qarabağ savaşında məşhur "Bayraktar" SİHA-larının rolunu indi dünyada bilməyən yoxdur. Selçuk bəy dünən Şuşada idi. Əminəm bir daha gördü ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız fədakarcasına öz milli qürurunu müdafiə etmək üçün, təmin etmək üçün hər zaman hər bir addıma hazırdır. Gənclər üçün Selçuk bəy də gözəl örnəkdir".

## RƏCƏB TAYYİB ƏRDOĞAN: Bu gün bir daha burada nümayiş etdirilən əbədi və əzəli qardaşlığımızı Rəbbim daimi etsin"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan festivalda çıxış zamanı Azərbaycanın Müstəqillik Günündə bərabər olmaqdan böyük məmnunluq duyduğunu bildirib: "Müstəqilliyin necə qazanıldığını, nə qədər dəyərli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi qəlbdən təbrik edirəm. İstiqlal və gələcək yolunda apardığımız şanlı mübarizələri şəhidlikləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və hörmətlə yad edirəm",- deyərək Prezident İlham Əliyevin timsalında Azərbaycan xalqına səmimi qonaqpərvərlik üçün təşəkkür edib: "Xəzərin incisi Bakıda "Bir millət, iki dövlət, tək festival" şüarı ilə dünyanın ən nüfuzlu aviasiya, kosmos və texnologiya festivalı - "TEKNOFEST"i keçiririk. Əziz Səncər hocamıza bu qürur günümüzdə həyəcanımızı bölüşdüyü üçün yenə şəxsən öz adımdan və millətim adından təşəkkür edirəm.

Ardı Səh. 5

# Güclü Azərbaycan - Güclü Türkiyə: Liderlərin örnək QARDAŞLIQ BİRLİYİ!

Əvvəli Səh. 4

Badi-Kubədən, yəni, küləklər şəhəri gözəl Bakıdan Nuru Paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə mübarizə apardığı torpaqların hər qarışına, Natəvanın qəzəlinin eşidildiyi ovalıqlara, şəhidimiz Xudayar qardaşımın türkü söylədiyi diyarlara, Gəncəyə, Şuşaya, Füzuliyə, Laçına, Azərbaycanın hər bölgəsinə salam və sevgilərimi göndərirəm. Bu gün bir daha burada nümayiş etdirilən əbədi və əzəli qardaşlığımızı Rəbbim daimi etsin".

"Diplomatik münasibətlərimiz 30 il əvvəl qurulmuş olsa da, taleyimizin birliyi tarixin dərinliklərinə qədər uzanmaqdadır. 1915-ci ildə Çanaqqalada, 1918-ci ildə Gəncədə, Bakıda və Azərbaycanın digər bölgələrində ürəklərimiz və biləklərimiz ortaq mübarizəmizdə yenidən bərabər olmuşdur", - deyə Türkiyə Prezidenti vurğulayıb. Rəcəb Tayyib Ərdoğan Türkiyə və Azərbaycan arasındakı məhəbbətin gücünü mərhum Bəxtiyar Vahabzadənin məşhur şeirindəki misralarla ifadə edib:

*Bir ananın iki oğlu,*
*Bir ağacın iki qolu,*
*O da ulu, bu da ulu,*
*Azərbaycan, Türkiyə.*
*Dinimiz bir, dilimiz bir,*
*Ayımız bir, ilimiz bir,*
*Eşqimiz bir, yolumuz bir,*
*Azərbaycan, Türkiyə.*



### RƏCƏB TAYYİB ƏRDOĞAN: "Türk millətinin qəlbindəki Azərbaycan sevgisini heç kim çıxarıb ata bilməz"

Türkiyə Prezidenti çıxışı zamanı vurğulayıb ki, Türkiyə Bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əslində də qardaş olan iki dövlətik, iki xalqıq. Göylərdə dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq: "Eynilə Anadolu kimi, bura bizim də torpağımızdır. Eynilə Türkiyə kimi, bura bizim də Vətənimizdir. Eynilə doğulduğumuz yerlər kimi, bura bizim də öz yurdumuzdur. Eyni ilə Türkiyənin hər bir qarışı da sizlərin Vətəninizdir, yurdunuzdur". Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, Türk millətinin qəlbindəki Azərbaycan sevgisini heç kim çıxarıb ata bilməz. İki qardaşı heç bir məsafə ayıra bilməz, könüllərimiz arasında kimsə sərhəd çəkə bilməz.

"Qərbdən Şərqə qədər harada bir qardaşımız varsa, ora bizim evimizdir, yurdumuzdur. Türkiyə-Azərbaycan olaraq bu anlayışla əlaqələrimizi əvvəlcə strateji tərəfdaşlığa, keçən il də Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çıxardıq. Enerjidən mədəniyyətə, müdafiədən ticari, iqtisadi və bəşəri münasibətlərə uzanan geniş sahədə güclü əməkdaşlıq qurduq",-söləyən Rəcəb Tayyib Ərdoğan "Akıncı" zirvə nöqtəsində olan bir SİHA-nın İstanbuldan Bakıya dayanmadan uçmaqla rekorda imza atdığını, gələcəkdə daha çox fərqli proseslər olacağını vurğulayıb.

### RƏCƏB TAYYİB ƏRDOĞAN: "Müharibədə olduğu kimi, sülh dönəmində də Türkiyə Azərbaycanın yanındadır"

Rəcəb Tayyib Ərdoğan çıxışı zamanı vurğulayıb ki, müharibədə olduğu kimi, sülh dönəmində də Türkiyə Azərbaycanın yanındadır: "Regional sülh və sabitlik üçün əziz qardaşım Əliyevin Ermənistanla qurmaq istədiyi dayanıqlı sülhü Türkiyə olaraq güclü bir şəkildə dəstəkləyirik".

Türkiyə Prezidenti Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli liderliyi ilə Can Azərbaycanın aydın bir gələcəyə doğru əmin addımlarla irəlilədiyini məmnuniyyətlə gördüyünü bildirib: "Qardaşım İlham Əliyevin qətiyyətli liderliyi ilə Can Azərbaycanın aydın bir gələcəyə doğru əmin addımlarla irəlilədiyini məmnuniyyətlə görürük. Sizlərə bu il anadan olmasının 130-cu ilində rəhmətlə andığım Azərbaycanın milli şairi Əhməd Cavadın bu sözləri ilə müraciət etmək istəyirəm:

*Mən Türk övladıyam,*
*dərin ağlım, zəkam var,*
*Nə vaxtacan çiynimizdə*
*gəzəcəkdir yağılar?*
*Nə qədər ki, hakimlik var,*
*məhkumluq var, mən varam.*
*Zülmə qarşı üsyankaram,*
*əzilsəm də susmaram!*

Bu gün bir millət, iki dövlət - Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyi tarixindəki ən yüksək zirvəyə yetişib. İndi Azərbaycan və Türkiyə bütün beynəlxalq layihələrdə birgə iştirak edir, xoş gündə də, dar gündə də bir-birinin yanında olur, dayağını, dəstəyini göstərir. Bütün çətinliklərə, problemlərə qarşı çiyin-çiyinə mübarizə aparır və birgəliyin verdiyi əzmlə, güc ilə hər zaman qalib gəlir, bundan sonra da QALİB OLARAQ GÜCLƏNƏCƏK!!!

**_RƏFİQƏ KAMALQIZI_**

# Türkiyə mediası:

## Azərbaycan yüksək təşkilatçılıqla TEKNOFEST-ə böyük əzəmət gətirdi!

***Mayın 26-da paytaxt Bakıda start götürən "TEKNOFEST Azərbaycan" festivalı barədə informasiyalar Türkiyə kütləvi informasiya vasitələrinin baş xəbəri olub. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda ilk dəfə təşkil edilən bu festivalda birgə iştirakları və çıxışları qardaş ölkə KİV-ləri tərəfindən geniş işıqlandırılıb. Dövlət başçılarının, həmçinin Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışında birgə iştirakları əsl qardaşlıq nümunəsi kimi təqdim edilib.***







Belə ki, Anadolu Agentliyi, "TRT Haber", "CNN Türk", "TRT AVAZ", "Haber Global" və digər telekanallar "TEKNOFEST Azərbaycan" festivalının açılış mərasimini canlı yayılayıblar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana növbəti işgüzar səfəri, qardaş ölkə Liderinin Bakıda yüksək qonaqpərvərliklə qarşılanması, ictimaiyyət nümayəndələri tərəfindən göstərilən səmimi münasibət, Azərbaycan və Türkiyə dövlət başçılarının çıxışlarındakı xüsusi məqamlar media tərəfindən diqqətlə izlənilib. Prezident İlham Əliyevin Nobel mükafatı laureatı Əziz Səncər və "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarın ünvanına söylədiyi xoş sözlər də Türkiyə mediasının diqqətini cəlb edib.







İnformasiyaları türk, ingilis, rus və digər dillərdə təqdim edən Anadolu Agentliyi "TEKNOFEST Azərbaycan" festivalının mahiyyətinə və qarşıda duran vəzifələrə toxunub. Xəbərlərdə qeyd olunub ki, elm və tərəqqinin təntənəsi kimi qiymətləndirilən festival gənc nəslin elm və təhsilə münasibətində köklü dəyişiklik yaradacaq. Agentlik festivalın bağlanış mərasimindən də xüsusi material yayıb.

"Haber Global" telekanalı yaydığı "TEKNOFEST Azərbaycan"dan tarixi görüntü: Ərdoğan ilə Əliyev belə qucaqlaşdılar" sərlövhəli reportajla iki qardaş ölkə liderlərinin dostluq və qardaşlıq münasibətlərini tərənnüm edib. Kanalın yaydığı materiallarda festivalın əzəməti, əhalinin coşqusu əksini tapıb. Vurğulanıb ki, festival gənclərin təhsilə və yaradıcılığa meylini daha da artırıb.

Festivalla bağlı ondan çox informasiya yayan Türkiyənin məşhur "Sabah" qəzeti bu barədə xəbərləri manşetdə təqdim edərək "TEKNOFEST Azərbaycan" sayəsində qazanılan uğurlar barədə analitik materiallar dərc edib. Materiallarda xüsusilə diqqətə çatdırılır ki, bu festival elm və tərəqqinin tərənnümüdür.

"TEKNOFEST Azərbaycan"ın bağlanış mərasimi də Türkiyə mediasının diqqət mərkəzində olub. Ölkənin nüfuzlu telekanallarından olan "TGRT Haber"in "Selçuk Bayraktardan Azərbaycan gənclərinə: Yerli texnologiyalar yaradın" sərlövhəli materialında əminliklə ifadə olunur ki, bu festivalda fəal şəkildə iştirak edən gənclər elmi, bilik və bacarıqları ilə bütün dünyanı heyran ediblər. Media qurumları festivalın yüksək peşəkarlıqla təşkili, əhalinin festival çərçivəsində keçirilən tədbirlərə böyük sevinc və qürur hissi ilə qatılması kimi mövzulardan rəngarəng materiallar yayıblar. Vurğulanıb ki, Azərbaycan yüksək təşkilatçılıqla TEKNOFEST-ə böyük əzəmət gətirib və onun beynəlxalq aləmdə cəlbediciliyini artırıb.

TƏNQİD RUHU+AKTUAL

# YouTube, yoxsa sosial şəbəkələrə transformasiya olunan terror təhlükəsi?




**Özünü jurnalist kimi görən, yaxud təqdim edən şəxsin ilk məsuliyyət hissi məhz qeyd edilən bu əsas amilə söykənməlidir - dövlətçilik maraqlarının qorunması! Əbəs deyil ki, dördüncü hakimiyyət adlandırılan media sahəsi həm də aparıcı peşələr siyahısında ən həssas məqamlardan biri kimi qeyd olunur. Yazılan hər yazı, edilən hər tənqid, irəli sürülən hər iddia, yayılan informasiyalar yüz ölçülüb-bir biçilməli, dövlətin maraqlarına xələl vurmamalı, auditoriyanı çaşqınlığa, fikir haçalığına salmamalıdır. Daha dəqiq desək, bu məsələdə yalnız dövlətçilik maraqları deyil, bütövlükdə cəmiyyətin maraqları da diqqətə alınmalı, həmçinin, sonrakı mərhələlərdə etik cəhət də nəzərə alınmaqla önəmli faktor kimi dərk edilməlidir.**

Təəssüf ki, müasir dünyamızda, yəni informasiya sektorunun sürətlə sosial şəbəkələrə transformasiya olunduğu bir zamanda biz həmin faktorları nəinki müşahidə etmirik, əksinə, bir sıra xələllər gətirən arzuolunmaz faktlar qarşısında qalırıq. Buna isə media və ya sosial media adını vermək ümumiyyətlə mümkün deyil, bu bütövlükdə raketçilik ambisiyalarının sosial şəbəkələrə transformasiya olunması ilə yanaşı qeyri-rəsmi şəkildə "leqallaşması", ictimai rəyə sırınması kimi də qiymətləndirilə bilər. Halbuki KİV haqqında qanunumuz mövcuddur və bu qanun kor-kor, gör-gör pozulur. Çünki həmin sferada fəaliyyət göstərən şəxslərin əksəriyyəti (yəni qeyri-peşəkar və dırnaqarası "jurnalistlər" istisna olunmaqla-R.R.) məhz qəzetçilikdən, sayt rəhbərliklərindən gələnlərdən ibarətdirlər. Bu haqda fikirlərimi çatdırarkən ayrı-ayrılıqda adlar çəkməyə də lüzum görmədim. Sadəcə, dəlil və isbat budur ki, şəxsi mənfəətləri naminə dövlətilik maraqlarını əleyhimizə işləyən xarici qüvvələrə peşkəş edən həmin fərdlər nə qədər böyük səhvlərə yol verdiklərinin ya fərqinə varmırlar, ya da elə qəsdən həmin fəaliyyətləri davam etdirirlər.

## İctimai rəyə yalan informasiyalar sızdırıb bundan pul-para qazananlar da, məhz həmin "cameəyə" aid olan kəslərdir!

Təbii ki, bu kimi məsələlərdə bir az da necə deyərlər, artistizm amili öz sözünü deyir. YouTube, Facebook, İnstagram, Tik-Tok və s. sosial şəbəkə platformalarında hay-haraylarla, səs-küylərlə, isterik çağırışlarla və qəsdən (!) minlərlə izləyiciləri aldadan, dövlətin maraqlarına qarşı çıxaran, ən kiçik məişət hadisəsini şişirdərək onu siyasiləşdirən bu vasitələrlə ikibaşlı oyunlar oynayan, maddi imkanlarını artıran sözdə "jurnalistlər" artıq peşəkarlıq cildlərini tərk etməklə birbaşa raketçilik "zirehini" əyinlərinə keçiriblər və bundan əsla utanmırlar. Əksinə, o da əbəs deyil ki, bir neçə gün bundan əvvəl saxta qazi məsələləri, habelə qazi adından suiistifadələr ətrafında sosial şəbəkələrdə ictimai rəyə yalan informasiyalar sızdırıb bundan para qazananlar da, məhz həmin "cameəyə" aid olan kəslərdir!

Haqlı olaraq sual edilə bilər ki, əcəba, əgər belə hallar mövcuddursa, onların qarşısı nəyə görə zamanında alınmırdı? Haqlı sualdır, amma bu sualın da cavabı var. Azərbaycanda digər qanunlarla yanaşı, media, söz və ifadə azadlığı birbaşa demokratik prinsiplərə söykənir. Siyasi mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq istənilən şəxslər, o cümlədən, jurnalistika ilə məşğul olan adamlar da daxil sosial şəbəkələrdə, saytlarda azad fəaliyyətlərini qura bilərlər, amma bu vasitədən sui-istifadə etmək artıq qırmızı xətti keçmək anlamını daşıyır.

## Bu gün jurnalistlər arasında belə bir deyim heç də elə-belə yaranmayıb - heyf, jurnalistikanın adını batırdılar, jurnalist peşəsi indi olub heç nə və s...

Əgər bir jurnalist təmsil olunduğu cameəyə hörmət bəsləmirsə, el dili ilə desək, yediyi qazana tüpürürsə, halal yollarla yaşayan, qanun çərçivəsində çalışan həmkarlarını da ictimai rəy qarşısında kölgədə qoyursa, artıq bu faktın özü qətiyyən heç bir çərçivəyə sığmır. Bu gün jurnalistlər arasında belə bir deyim heç də elə-belə yaranmayıb - heyf, jurnalistikanın adını batırdılar, jurnalist peşəsi indi olub heç nə və s...

Təbii ki, bütün bunların arxasında dayanan əsas arzuolunmaz reallıq yuxarıda qeyd edilənlərdir! Şantajçılıq, qərəz, təhqir, böhtan, qeyri-faktçılıq acı gerçəkliyi dünya-aləmi götürüb başına. İndi hər kəs məhz həmin reket jurnalistlərdən örnək götürməklə əllərində olan smartfonların videodüyməsini basır və dönür olur "bloger". Daha haqqında bəhs edilən mövzunun səhihliyi, informasiyanın dəqiqliyi barədə heç kim düşünmür və beləcə yaşı az qala bir əsr yarıma çatan milli mətbuatımız dəhşətli girdaba doğru istiqamət alır və artıq SOS siqnalının verilməsinin tam zamanıdır. Ölkə mətbuatı belə parazitlərdən təmizlənməli, qanunlar sırf demokratik tələblər çərçivəsində bir az da sərtləşdirilməlidir, əks halda bizlər daha betər hadisələrin şahidlərinə çevrilməli olacağıq. Reket media mətbuat sahəsindən çıxaraq ictimai sahəyə sürətlə transformasiya olunub və bu, təəssüf ki, başlanğıcdır, amma atalarımızın bir misalı da var - dəmiri isti-isti döyərlər...

## Hər kəs istədiyi vaxt istədiyi adda "TV kanalı" açıb sonra da istədiyi şəxslərə qarşı qərəz, şər-böhtan kampaniyaları apara bilər və onlara kimsə güldən ağır söz də deyə bilməz (?!-R.R.)

Belə bir mühitin daha çox YouTube sosial şəbəkəsində yaranması isə belə bir təəssürat yaradır - hər kəs istədiyi vaxt istədiyi adda "TV kanalı" açıb sonra da istədiyi şəxslərə qarşı qərəz, şər-böhtan kampaniyaları apara bilər və onlara kimsə güldən ağır söz də deyə bilməz (?!-R.R.) Misal üçün, şirkətləri, iş adamlarını, sahibkarları hədəfə alanlar sonradan müəyyən etdikləri qanunsuz qazanc məbləğlərini tələb etməklə birbaşa cinayətkar əməllərə yol verirlər. Əgər bu gün YouTube-də isterika xarakterli hay-harayları vasitəsi ilə "sözünü deyən adamlar" varsa, həqiqətdə həmin adamların əksəriyyətini nə xalq, nə də millət qətiyyən maraqlandırmır. Onlar sadəcə sözügedən vasitələrlə xalqın, auditoriyanın "rəğbətini" qazanır və həmin "rəğbətlər" hesabına Türkiyədə, digər ölkələrdə ev-mülk, külli miqdarda vəsait sahiblərinə, "iş adamlarına" çevrilirlər.

## Sarı mətbuatdan sarı monitora...

Bu məqamda biz üstəlik, daha bir təəssüfedici məqama da toxuna bilərik. Bu gün sosial şəbəkələrə çökmüş cəmiyyətin bir qismində ucuz xarakterli, söyüşlü, təhqirli məlumatlar daha çox izlənilir. Habelə, sosial şəbəkə "fenomenləri" də günün "əsas mövzularına" çevrilir.

Təkcə bir fakta diqqət yetirək. Bu günlərdə saytların bir çoxu "Tosu Zəngilanlı vəfat etdi" başlıqlı yazı ilə reytinq qırdılar və bu reytinqin nə cəmiyyətə, nə milli maraqlara nə bütövlükdə digər dəyərlərimizə heç bir aidiyyatı yoxdur, ola da bilməz. Təəssüfedici isə budur ki, xalq hazırda belə məntiqsiz informasiyalarla "qidalandırılır" (?!).

Beləliklə, bu kimi çoxsaylı halları təhlil elədikcə biz növbəti məsələləri də agah etmiş oluruq. Misal üçün, bir müddət əvvəl, elə indi də Avropada oturub "söyüş müxalifəti" ilə məşğul olanlar var idisə, indi həmin söyüş və təhqirlər ölkəmizin daxilində də yer alır. Bir sözlə, raketçilik, dələduzluq, şantajçılıq və qərəzçilik ayaq açıb yürümür, sürətlə qaçır və virus kimi cəmiyyətin alt şüuruna yayılır.

## Erməni lobbisi söyüş müxalifətindən necə bəhrələnir?

Söz yox ki, istər qərəzli siyasi məqsədlər güdən, söyüşlərə söykənən, istərsə də qazanc mənbəyinə hesablanmış şər-böhtan vasitələri dərhal Azərbaycan əleyhinə fəaliyyət göstərən xarici qüvvələrin əlində "silaha" çevrilir. Və burada erməni lobbisinin də maraqları təmin edilir.

Belə olan halda həm reketçiliklə, həm də dövlət əleyhinə fəaliyyət göstərməklə YouTube və s. sosial şəbəkə kanallarında var-gəl edənlərə qarşı mütləq və təcili ölçülərin götürülməsinin vaxtı çatıb. Ümid edirik ki, müvafiq hüquq-mühafizə strukturlarımız da hərəkətə keçməklə artıq cəmiyyətimizin sağlam düşüncəsini zədələyən, korlayan, xalqımıza, milli mənəvi dəyərlərimizə zidd olan bu kimi acınacaqlı halların qarşısını operativ qaydada alacaqlar. Əks halda, bu problemlər ciddi mənəvi terror təhlükəsi kimi daha ağır fəsadlara yol aça bilər.

***Rövşən RƏSULOV***

# Qarabağa gedən ağıllı yol, ağlın yolu və Türkün növbəti Zəfər dastanı!

***Arxada qalan həftəmiz Tarixə qızıl hərflərlə yazılacaq və yazılan bir həftə oldu. Qalib Azərbaycanın yenə növbəti uğurlarına, qələbələrinə imza atıldı. 44 günlük Vətən Müharibəsindən başlayan Zəfər, Qələbə yürüşü yenə davam etdi, Qələbə üzərinə Qələbə, Zəfər üzərinə Zəfər gəldi. 2003-cü ilin oktyabrından bu yana hər bir sözünə, hər bir vədinə sadiq qalan Müzəffər Ali Baş Komandan, Qalib Sərkərdə, ölkə Prezidenti cənab İlham Əliyev yenə sözünün, vədinin sahibi, yiyəsi oldu. Qarabağın dirçəldilməsi, bərpa edilməsi, əvvəlkindən də daha çox gözəlləşdirilməsi, çiçəkləndirilməsi, "Böyük qayıdış" istiqamətində növbəti önəmli addım atdı.***

Qarabağa, Zəngilana ən yaxın və ən sadiq silahdaşı Birinci xanım, Birinci vitse-prezident Mehriban Əliyeva ilə son səfərində növbəti açılışlarda iştirak etdi, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasiminə qatıldı.

Bəli, Qarabağın, Zəngilan işğaldan azad edilməsindən cəmi il yarım keçməsinə baxmayaraq, 30 ilə yaxın məcburi köçkünlük həyatı yaşayan insanlarımızın öz doğma yurd yerlərinə qayıdışının önü açıldı, əsası qoyuldu. Bunu ancaq Qalib, Güclü, Qüdrətli Azərbaycan dövləti edə bilərdi, bunu ancaq İlham Əliyev kimi Liderləri lideri, Dəmir iradəli, Qətiyyətli, Cəsarətli bir dövlət başçısı edə bilərdi və etdi də.





*Eldar İBRAHİMOV, Milli Məclisin İntizam komissiyasının sədri*

"Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi müstəqilliyimizin möhkəmlənməsindən asılı idi. Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan ümumiyyətlə görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir"-deyən Ali Baş Komandan açılış mərasimindəki çıxışında bir daha qətiyyətli şəkildə bildirdi və dünyaya duyurdu ki, Dağlıq Qarabağ münaqişəsini həll etmişik, qanlı münaqişə artıq həll olunub.

Dağlıq Qarabağ adlı inzibati ərazi artıq Azərbaycan ərazisində, coğrafiyasında yoxdur. Artıq beynəlxalq qurumların leksikonunda Dağlıq Qarabağ sözü yoxdur və son Brüssel görüşü bunu bir daha göstərdi.

Qalib Sərkərdənin dediyi kimi, düzdür, Ermənistanda indi bu məsələ ilə bağlı yenə də hay-haray qaldırıblar və necə deyərlər, başlarını divara vururlar, amma bu, reallıqdır və onlar bu reallıqla barışmağa məcburdurlar.

Dağlıq Qarabağ münaqişəsi həll olunub, Minsk qrupu öz fəaliyyətini başa vurub.İndi postmünaqişə dövrüdür. Biz bu dövrdə yaşayırıq və postmünaqişə dövründə də biz gündəliyi diktə edirik və müharibədən keçən ilyarım ərzində nəyi istəmişiksə ona nail olmuşuq. Nəyi demişiksə, buna da nail olmuşuq, ya da ki, nail oluruq. Bütün dünya, aparıcı ölkələr və aparıcı beynəlxalq təşkilatlar yeni reallıqları qəbul ediblər. Bu, çox vacib idi, çünki başqa cür də ola bilərdi. Artıq Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi imzalanmalıdır.

Dövlət başçısı çıxışında bir daha bu məqama toxunaraq "Ermənistan bundan boyun qaçırmağa can atırdı. Çünki sülh müqaviləsi ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması deməkdir. Amma nəticə etibarilə biz buna da nail olduq və artıq Azərbaycan öz işçi qrupunu müəyyən edib. Daha bir vacib məsələ, Zəngəzur dəhlizinin açılmasıdır. Ermənistan hər zaman buna da maneçilik törətməyə çalışırdı. Amma yenə də, Brüssel görüşünün rəsmi açıqlamasına baxın, artıq həm dəmir yolu, həm avtomobil yolunun Mehridən, Zəngəzurdan keçməsi müəyyən olunub. Yəni, biz buna da nail oluruq və mən demişdim ki, nail olacağıq. Yəni, biz gündəliyi diktə edirik. Nəyin hesabına? Əlbəttə ki, müharibənin nəticələrinin hesabına"- deyə, bəyan etdi və hər kəsin diqqətinə çatdırdı ki, biz qalib dövlətik, Ermənistan məğlub edilmiş dövlətdir. Bu reallığı hər kəs qəbul etməlidir və edir.

Bəli, "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi bir daha Azərbaycanın qüdrətini, qətiyyətini, iradəsini ortaya qoydu. Bir daha hər kəsə əyan və bəyan oldu ki, biz işğaldan azad olunmuş torpaqlarımıza, Qarabağımıza qayıtmışıq, buradayıq və bundan sonra da burada olacağıq.

Bundan sonra kimsə bizi Qarabağdan ayıra bilməz və bilməyəcək, bu yöndə bütün məkrli cəhdlər fiaskoya uğrayacaq. Bəli, artıq Ağalı kəndində yaşayan ailələrin sayı 200-dən çoxdur və artıq yeni layihə təqdim edilib. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər - "ASAN", "DOST", kiçik və orta biznesə dəstək, hər şey burada var.

Bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq.

Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, həm də Baş planları təsdiq edilmiş rayonlarda inşaat işləri daha sürətlə gedəcək, "Böyük qayıdış" mərhələ-mərhələ öz yekununa çatacaq!

***

Ötən həftənin ən mühüm və deyərdim ki, dünya miqyaslı hadisələrindən biri də heç şübhəsiz ki, qardaş və dost Türkiyənin lideri, daim Azərbaycan xalqının yanında olan cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycana növbəti səfəri, Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirakı oldu.

Bu səfər, bu festival sıradan bir hadisə deyildi, bu, "Bir millət-iki dövlət" deyiminin əməldə təsdiqi, qardaşlığın, bərabərliyin, birgəliyin növbəti əyani təzahürü və təcəssümü idi. Bütün dünyaya bir daha birlik və bərabərliyimiz, həmrəylimiz nümayiş etdirildi, bir daha bütün dünya gördü ki, Azərbaycanla Türkiyənin birlik və bərabərliyini kimsə poza, sarsıda bilməz və bilməyəcək.

**Hər zaman bir idik, hər zaman bir olmuşuq, hər zaman birik və hər zaman da bir olacağıq!**

Bunu hər kəs bir daha yaxşı duysun və qulaqlarına sırğa etsin!

Cənab Ərdoğanın da festivalda tarixi çıxışı zamanı bəyat etdiyi kimi, bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik, iki xalqıq, göylərdə nazlı-nazlı dalğalanan ayparalarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq.

Çıxışı zamanı "Eynilə Anadolu kimi, bura da bizim torpağımızdır. Eynilə Türkiyə kimi, bura da bizim Vətənimizdir. Eynilə doğulduğumuz yerlər kimi, bura da bizim öz yurdumuzdur. Eyni qaydada Türkiyənin hər bir qarışı da sizlərin Vətəniniz, yurdunuzdur. Türk millətinin qəlbindəki Azərbaycan sevgisini kim qoparıb ata bilər? Qardaşlar arasında kim məsafə qoya bilər? İki qardaşı hansı hüdud ayıra bilər? Könüllərimiz arasında kim sərhəd çəkə bilər?"-deyərək, cənab Ərdoğan bir daha qətiyyətli və birmənalı şəkildə hər kəsə mesajını verdi.

Eyni zamanda, Ali Baş Komandanımızın bəyan etdiyi kimi, Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir.

Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaq. Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə hər zamankı kimi bizim yanımızda idi.

Cənab Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq. Unutmadıq, unutmamışıq, unutmuruq, unutmarıq və unutmayacağıq!

Biz birlikdə çox Qələbə və Zəfərlərə imza atmışıq, bundan da sonra birlik və bərabərliyimizlə hələ neçə-neçə uğurlara, nailiyyətlərə imza atacaq, möhür vuracağıq.

Qələbələr, Zəfərlər, Uğurlar bizimdir, bizimlədir və bizimlə də olacaq!

Qələbələrimiz, Zəfərlərimiz mübarək!

# Tanrıdan gələn səsdi: Qıymayın uşaqlara!




RESENZİYA

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, şair-publisist İbrahim Yusifoğlunun erməni terrorunun qurbanı olmuş uşaqların əziz xatirəsinə ithaf etdiyi "Qıymayın uşaqlara" adlı yeni şeirlər toplusu yaxın günlərdə işıq üzü görüb. Yeni nəşr müəllifin sayca 31-ci, uşaqlar üçün isə 7-ci kitabıdır. "Futbolçu, topçu, gopçu", "Arpaçayın uşaqları", "Vətən nəğməsi", "Azərbaycan Vətənimdir", "Göy yerə zəng eyləyir", " Payızda üşüyən çiçək" adlı kitabları kimi, müəllifin "Qıymayın uşaqlara" kitabını da bu gün Azərbaycanda uşaq şeirlərinin çox az yazıldığı bir dövrdə uşaq ədəbiyyatına verilən töhfə kimi dəyərləndirmək olar. Ayrı-ayrı bölmələrdə yer alan və Azərbaycanın tarixini, Zəfərini, folklorunu, gözəl təbiətini, milli mətbəxini və sair sahələri əhatə edən bir-birindən maraqlı şeirlərlə İbrahim Yusifoğlu milyonlarla uşağın babası olduğunu, onların hərtərəfli biliyə sahib olmaları üçün ortaya sanballı kitab qoyduğunu təsdiqləmişdir.**

## Milyonlarla nəvənin babası

İbrahim müəllimi milyonlarla nəvənin babası adlandırmaq olar. Çünki hər hansı ziyalı və yaxud sıravi insan o zaman tək özü üçün deyil, bir el, xalq üçün yaşadığını təsdiq edir ki, məhz belə bir iş ortaya qoya bilir. Müəllifin Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində işıq üzü görən kitabı onun milyonlarla nəvəsinin olduğunun sübutudur. Bu kitabla o, bütün nəvələrinin bayramını təbrik etmiş, onlara bir-birindən gözəl hədiyyələr bağışlamışdır. Elə bir hədiyyə ki, zamanla bu nəvələrin də öz nəvələrinə verəcəkləri dəyərli hədiyyə olacaq. Elə bir hədiyyə ki, nə qırılan, nə köhnələn, nə itib-batan deyil, daim evlərimizdəki rəfləri, uşaq otaqlarının masasını bəzəyən kitabdır.

Həyatımıza internetin sürətlə daxil olduğu, hər gün yeni sosial şəbəkələrin ortaya çıxdığı, insanların həmin şəbəkələrə axın etdiyi bir dövrdə yazılan belə kitablar, sözün həqiqi mənasında, qiymətsizdir. Ənənəvi kitab oxumanı davam etdirmək, uşaqları yeni texnologiyaların çoxsaylı bəlalarından uzaq tutmaq üçün müəllifin uşaqlar üçün yazdığı kitablar xüsusi əhəmiyyətə malikdir. İbrahim müəllim yaşının ahıl çağında müasir dövrün sürətli "yenilikləri" qarşısında bu cür kitabları ərsəyə gətirməklə nəvələrinə-uşaqlara qayğısını bildirir, onların xalqın adət-ənənələri, mentaliteti çərçivəsində böyüməsini ürəkdən arzu edir.

Kitab yazmaq, xüsusilə də şeir yazmaq heç də asan bir iş deyil. Xüsusilə də uşaqların anlayacağı, qəlbinə, beyninə, hisslərinə təsir edəcək şeirlər yazmaq böyük hünər, qabiliyyət tələb edir. Bu baxımdan "Qıymayın uşaqlara" təqdirəlayiq bir kitabdır, böyük zəhmətin nəticəsi, hər misrası baba məhəbbətindən doğan şeirlər toplusudur.

Baba öz vəzifəsini yerinə yetirmişdir. Uşaqları kiçik yaşlarından tariximizlə, mədəniyyətimizlə, mətbəximizlə tanış etmək üçün onların anlayacaqları şəkildə onlarla şeir yazıb, kitab şəklində təqdim etmişdir. İndi əsas vəzifə məktəbdə müəllimlərin, evdə valideynlərin üzərinə düşür. O məqamda ki, bu şeirlərlə uşaqların dünyasını zənginləşdirmək, bəzəmək artıq onların işidir.

## Zəfər nəğməsi

30 illik zaman kəsiyində iki dəfə müharibə yaşayan Vətənimizdə uşaqlar ən çox əziyyət çəkən təbəqə olmuşdur. Birinci Vətən Müharibəsində də, İkinci Vətən Müharibəsində də yüzlərlə uşaq həyatını itirmiş, ata-anasız qalmışdır. Minlərlə uşaq əzəli torpaqlarımızdan didərgin salınan valideynləri ilə birgə qaçqın, köçkün həyatını yaşamağa məcbur qalmışdır. Çətinliklərlə üzləşən, öz doğma bağçasından, məktəbindən ayrılmaq onlar üçün heç də asan olmamışdır. Bunlar uşaq psixologiyasına ən ağır zərbələrdir ki, onları da bizim körpələrimiz yaşamışlar. Bizim uşaqlarımız şəhid, qazi uşaqları olmuşlar. Əksər sayda uşaqlarımız var ki, ataları şəhid olandan sonra dünyaya göz açmışlar. Atalarının üzünü görməyən uşaqlarımız üçün indi onların şəkilləri ata rolunu oynayır, bir azdan dil açıb danışanda o rəsmlərdəki atanın nə zaman gələcəyini soruşanda isə alacaqları cavablarla yeni səhifələr açılacaq qarşılarında.

Bizim uşaqlarımız bütün yaşadıqlarından çox qürur yaşayacaqlar. İkinci Vətən Müharibəsində torpaqlarımızı 30 illik işğaldan azad etməyimizin qürurunu. 2020-ci ilin payızının 44 günündə Qarabağımıza gələn baharın qürurunu. Bu qüruru hələ yenicə hərfləri öyrənib oxumağa başlayan "Qıymayın uşaqlara" kitabından oxuyacaqlar. Bu qürur Zəfər qürurudur, şərəfimiz, namusumuz olan torpaqlarımızın düşməndən geri alınması qürurudur. Elə Zəfərimizdən bir gün sonra yazılan və kitabda yer alan şeir kimi:

Nəğmələrin müqəddəsi, ulusu,
Meyvələrin ən şirini, sulusu,
Bulaqların ayna kimi durusu,
Zəfər nəğməsi.
Bu nəğmənin hər sədası "Cəngi"di,
Al-qırmızı kəlmələrin rəngidi,
Dar anında bir oyanış zəngidi,
Zəfər nəğməsi.

Bəli, şairin də yazdığı kimi, bu nəğmə yarıb keçdi çəpərləri, sədləri, əritdi buz bağlamış hədləri, nankorları diz çökdürdü. Bu Zəfər nəğməsi dəmir yumruğa dönüb düşmənin başını əzdi, onun sədasıyla el xoş cağına qovuşdu. Bu nəğmə igidlərin hünəriylə azad eldə, azad dildə oxundu.

Müharibənin mahiyyətini açan, qələbəmizin qürurunu yaşadan bu nəğmə uşaqların dilinin nəğməsinə çevriləcək zaman-zaman, onların vətənpərvər yetişməsini şərtləndirən ilk şeir olacaq.

## "Şuşa ili" uşaqlara söyləyir...

Söyləyir ki, müharibədə Şuşa igid oğullarımızın əlbəyaxa döyüşləri, dağları, sıldırımları sinələri ilə aşmaları, böyük rəşadətləri hesabına azad edildi. Qarabağın tacı olan şəhərin şərəfinə bu il "Şuşa ili"dir. Şuşa yenidən qurulur, hüsnünə min bir naxış vurulur.

Otuz illik qəfəsin,
Sındırıldı kilidi.
Qarabağın dəyişdi,
Tapdalanmış cilidi.
Yenə burda səslənən,
Dədəm Qorqud dilidi.
Elim, obam sevinir,
Bu il "Şuşa ili"di.

Şair misralarında Şuşaya salınan yolun "Zəfər yolu" olduğunu, bu əzəməti görəndə qəlblərin məşəltək alovlandığını vurğulayır. Çünki bu "Zəfər yolu" Şuşanın qan damarı, nəbzidir, bu yol Turan yoludur, milli birlik rəmzidir.

"Şuşa ili" şeirində Şuşanın "obrazı" yaradılıb. Elə bir obraz ki, uşaqlar bu şeiri oxuyan anda onun təbiəti, coğrafiyası, Qarabağın gözü olması, hansı çətinliklərlə alınması, necə alınması təsəvvürlərində əks olunacaq.

"Xarı bülbül" ətridi,
Yerə, göyə ələnib.
Cıdır düzü, xan Şuşa
Gözəlliyə bələnib.
"Xarı bülbül" vətəni
Tək Qarabağ elidi.
Şux, gülərüz görünür-
Bu il "Şuşa ili"di.

Şeir Şuşanın gələcək günləri ilə bağlı xoş müjdə ilə bitir:

Müzəffər Baş Komandan
Sevindirib hər kəsi.
Şuşa elan olunub
Mədəniyyət mərkəzi.
Şən anlar bol olacaq,
Bu hamıya bəllidi.
Göz görür, qəlb öyünür
Bu il "Şuşa ili"di.

Bu bölmədə yer alan "Ağdam şəhəri", "Sağalmaz bala dağı", "Şuşa", "Günnütüm", "Xocalım, hey...Xocalım", "Qara Yanvar gedir", "20 Yanvar Günü" adlı və sair şeirlərdə də uşaqlara tariximizin keşməkeşlərini özündə əks etdirən anlar çatdırılır, onlar bu xalqın nələr yaşadıqları ilə tanış olurlar. Bir-birindən mənalı, oxunaqlı, uşaq hafizəsinə, dərketməsinə uyğun şeirlər müəllifin uşaq dünyasını necə fəth etmənin yollarını uzun illərin pedaqoqu bacarığı ilə ortaya qoymasını sərgiləyir.

Ana yurdum Azərbaycan

Bu bölmə uşaqlar qarşısında şəhərli-kəndli, aranlı-dağlı, çaylı-göllü, bulaqlı bir mənzərə açır. Şəhərdə yaşayan uşaqlar kəndlərimizi, kəndlərimizdə yaşayan uşaqlar isə şəhərlərimizin gözəllikləri ilə tanış olurlar. Yəni müəllifin bu yanaşması da təqdirəlayiqdir. Ana yurdun olanlarını uşaqlara çatdırmaq, bir kitabda bütün bunları əks etdirmək həqiqətən böyük bacarıq tələb edir, kəndə kənd kimi, şəhərə şəhər kimi bələd olmağı göstərir:

Yer üzündə bir diyar var,
Çox gözəldi burda hər yan.
Ürəkləri ovsunlayır
Ana yurdum Azərbaycan, - misraları
Xəzərin sahilindən,
Baxır Bakı şəhəri.
"Gilavar"la, "Xəzri"lə
Açılır hər səhəri.

Şair Bakıdan Naxçıvana-Azərbaycanın qədim diyarına üz tutur:

Qoca Şərqin qapısında
Dayanmışam, Naxçıvanam.
Yarandığım əzəl gündən,
Odlar yurdu olmuş anam!,-deyir.

"Kəndimiz" şeiri bu gözəllikləri bir başqa cür tamamlayır:

Dağlar qoynunda
Bir kəndimiz var.
Onu görənlər
Heyran qalırlar.

"Ulu dağlarım" şeiri isə kəndin mənzərəsini yaradır gözlər önündə:

Şiş qayaları
Göyləri qucar.
Zirvələrində
Qartallar uçar-
Sərt, əzəmətli
Ulu dağların.
Və yaxud "Yovşan ətridi" şeiri:
Kəndimizdə var
"Dovşan dərəsi",
Burda qurulub
Ovçu bərəsi.
Dərənin hər vaxt
Dovşanı çoxdu.
Həm də ətirli
Yovşanı çoxdu.

Kitabda uşaqlar folklor nümunələri ilə də tanış ola biləcəklər:

Qarı nənə, qarı nənə,
Gün əridir qarı, nənə.
Torpağına xor baxını,
Lənətləyib, qarğı, nənə.
Və ya
Qarı nənə, qarı nənə,
Səp quşlara darı, nənə.
Övladların qoy olsunlar,
Bir gülövşə narı, nənə.

"Çillə gecəsi" şeiri də milli adət-ənənələrimizi öyrənmək və yaşatmaq baxımından uşaqlar üçün çox dəyərli bir ədəbi nümunədir:

Qonaq gəlmişik
Biz babamgilə.
Axı bu gecə
Çillədi, çillə.
Saatlar, anlar
Çox keçəsidi.
Bu gün ən uzun
Qış gecəsidi.

Bir-birindən gözəl, mənalı, böyük istedadla, şövqlə yazılan, uşaqlarımıza həyatı aşılayan şeirlərlə tanış olarkən akademik İsa Həbibbəylinin İbrahim Yusifoğlu haqqında söylədiyi fikirləri xatırladım: İbrahim Yusifoğlu uşaqlar üçün yazdığı mənzum pyeslərdə ibrətamiz, tərbiyəvi xarakterə malik olan hadisələri, uşaq dünyasının incəliklərini şairanə şəkildə təqdim edir. İbrahim Yusifoğlunun bir çox uşaq pyesləri Azərbaycan ədəbiyyatında bu janrda yazılmış ən yaxşı əsərlər sırasındadır. Onun ən yaxşı uşaq pyesləri böyük səhnə üçün faydalı ola bilən əsərlərdir.

Bəli, şair-publisistin yeni nəşr olan "Qıymayın uşaqlara" adlı kitabında da bu pyeslərin davamı var: "Pəhlivanın bağında" adlı 3 pərdəli pyes. Əgər rejissorlarımız fərqinə varıb səhnələşdirərlərsə, əsərin böyük uğur əldə edəcəyinə indidən əminəm.

Beləliklə İbrahim Yusifolunun uşaq bayramında nəvələrinə hədiyyə etdiyi kitab haqqında söhbətin sonuna gəldik. Müəllifi təbrik edib, yeni yaradıcılıq uğurları arzulayarkən həm də ümidvaram ki, bu kitab bütün evlərdə uşaq masalarını bəzəyəcək. Uşaqlarımızı internetin cəngindən saatlarla xilas edəcək. Belə də olmalıdır. Çünki bütün mənalarda, şair demişkən, uşaqlara qıymayaq.

Uşaqları gül üstə
Kəpənəklər gözləyir.
Səkilərdə gəzişən
Göyərçinlər səsləyir.
Bülbüllər, qaranquşlar,
Şux nəğmələr bəsləyir.
Bu rəngarəng dünyanı
Boyamayın siz qana.
Ey insan qatilləri,
-Qıymayın uşaqlara!

***Mətanət MƏMMƏDOVA***

# "Rusiya-Ukrayna müharibəsi bütün dünyaya təsir edir"

**"Heç şübhəsiz ki, Rusiyanın Ukraynaya təcavüzü fonunda baş vermiş müharibə təkcə region ölkələrinə deyil, dolayısıyla bütün dünyaya təsir edir. Bir qism dövlətlər müharibə səbəbilə qaçqın problemləri ilə üz-üzə qalıblar, bir qismi Rusiyaya tətbiq olunan sanksiyalar səbəbilə bu ölkə ilə iqtisadi münasibətlərdə problemlər yaşayırlar, Ukrayna müharibə səbəbindən ayrı-ayrı dövlətlərlə iqtisadi münasibətlərini lazimi səviyyədə həyata keçirə bilmir ki, bu da həmin ölkələrin də iqtisadiyyatına təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında Rəşad Bayramov bildirib.**



Onun sözlərinə görə, müharibə səbəbilə və sanksiyaların təsiri ilə dünyada neft və qaz qiymətlərində artım müşahidə olunur ki, bu da həmçinin ərzaq məhsullarının qiymətinin artmasına da təsir göstərir: "Nəticə etibarilə müharibədən bu və ya digər səviyyədə əksər ölkələr əziyyət çəkir və problemlər yaşayırlar. Bu problemlərin aradan qaldırılmasının yeganə yolu isə müharibənin dayandırılması və Rusiyanın öz təcavüzkar siyasətindən əl çəkməsidir. Lakin təəssüf ki, qənaətim bu müharibənin hələ uzun müddət davam edəcəyi yönündədir. Çünki müharibə Rusiya ilə Ukrayna savaşından çoxdan çıxıb və beynəlxalq güclərin savaşına çevrilib. Ukrayna ərazilərinin Belarus istiqamətindən atəşə tutulması, Suriyadan gətirilən döyüşçülər və Qərb dövlətlərin Ukraynanı ardıcıl şəkildə silah və texnika ilə təmin etməsi savaşı artıq iki dövlət arasında müharibədən çıxarıb. Hadisələrin bundan sonrakı inkişafını dəqiq proqnozlaşdırmaq mümkün olmasa da dəqiq olan odur ki, savaşın davam etdiyi hər gün Rusiya daha çox itirir. Söhbət təkcə əsgər və texnika itgisindən getmir, həm də Rusiyanın maliyyə itgilərindən gedir. Sanksiyaların təsiri tədricən də olsa özünü göstərməyə başlayır. Artıq Rusiyada bir çox müəssisələrin ixtisarlara getdiyi və ya fəaliyyətini tamamilə dayandırdığı məlumdur.

İşğal altında olan ərazilərdə partizan müharibəsinin başlaması və yeni silah transferləri ilə yay aylarında müharibənin daha da şiddətlənəcəyini proqnozlaşdırmaq olar. Müharibənin davam etdirilməsi üçün Rusiyaya daha çox maliyyə lazımdır. Maliyyə isə əsasən enerji resurslarının satışından əldə olunurdu. Lakin bu gün Avropa İttifaqı tərəfindən Rusiya qarşı özündə neft və neft məhsullarına embarqonu ehtiva edən 6-cı paket sanksiyaların qəbul olunması Rusiyanı daha ağır duruma salacaq. Bura artıq Bayden tərəfindən imzalanmış Lend-Liz aktına əsasən gələn həftədən etibarən Rusiyaya uzaqmənzilli silahların da veriləcəyini nəzərə alsaq deyə bilərik ki, Rusiya üçün vəziyyət heç də ürəkaçan olmayacaq. Çünki, uzaqmənzilli silahların verilməsi o deməkdir ki, indiyə qədər ancaq qısamənzilli silahlara malik olan və daha çox müdafiə olunan Ukrayna bundan sonra hücum etmək imkanları da əldə edəcək.

Məsələ bundadır ki, Ukrayna artıq müharibənin ilk şokundan ayılıb və indi təkcə müdafiə haqqında deyil, həm də hücum haqqında düşünür. Elə dünən Ukrayna Hərbi Hava Qüvvələrinin Xarkov, Donetsk, Luqansk və Xerson vilayətləri istiqamətində Rusiya qoşunlarının mövqelərinə havadan zərbələr endirməsi də deyilənləri təsdiq edir. Təkcə son gün ərzində Ukraynanın zenit-raket qoşunları Odessada Rusiyanın "X-22" qanadlı raketini, Donetsk və Luqansk istiqamətində 1 tankını, 4 artilleriya sistemini, 5 zirehli döyüş maşınını və 2 avtomobilini sıradan çıxarıb. Eyni zamanda, Ukrayna Hava Hücumundan Müdafiə bölməsi Rusiyaya məxsus "X-59MK" qanadlı raketini də məhv edib.

Bütün bunlar onu deməyə əsas verir ki, Rusiya ya tezliklə müharibənin dayandırılması ilə bağlı qərar qəbul edib danışıqlara başlamalıdır, ya da uzunmüddətli müharibə Rusiya üçün ağır itkilərlə nəticələnəcək".

***Banuçiçək Hüseynli***

# "Senzuranın ləğvi reket fəaliyyətinə həvəs göstərənlərin əl-qolunu açıb"



"Azərbaycan söz və mətbuat azadlığının təmin olunduğu ölkələrdəndir. Respublikamızda ifadə azadlığı ən müxtəlif formatlarda təzahür edir. Sözsüz ki, bu platformalardan biri də "YouTube"dur. Ölkədə "YouTube" kanallarının, ayrı-ayrı "youtuber"lərin normal fəaliyyət göstərməsi üçün münbit şərait var". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib. Onun sözlərinə görə, Azərbaycanda senzura 24 il əvvəl ləğv olunub: "Senzuranın ləğvi peşəkar jurnalistlərin məsuliyyətini artırsa da, qeyri-peşəkarların, reket fəaliyyətinə həvəs göstərənlərin əl-qolunu açıb. Biz bu mənfi tendensiyanı həm çap mətbuatının parlaq dövründə, həm də indi müşahidə edirik. İstedadsız, tamahkar adamlar üçün jurnalistika sürətlə qazanc mənbəyinə çevrilir. Bu qəbildən olan insanlar son vaxtlar "YouTube" kanallarında da boy göstərməyə başlayıblar. Söz vəzifəsindən, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, ayrı-ayrı insanların linç edilməsi üçün vasitə ola bilməz. Sözü qəmbər daşı kimi rəqibin başına çırpmaq olmaz. Hər bir tənqidi fikir sağlam arqumentlərlə əsaslandırılmalıdır. Hesab edirəm ki, ən müxtəlif platformalarda, o cümlədən "YouTube" kanallarında sözdən reketlik məqsədilə istifadə edən adamlar cəzalandırılmalıdır".

***Arzu Qurbanlı***

# "Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci bir dövlət yoxdur"



"Dünyada Türkiyə və Azərbaycan qədər həm iqtisadi, həm siyasi, həm hərbi, həm də mədəni baxımdan bir-birinə yaxın olan ikinci bir dövlət əlbəttə ki, yoxdur". Bu sözləri SİA-ya açıqlamasında Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov deyib.

Onun sözlərinə görə, bu gün Türkiyə-Azərbaycan münasibətlərinin inkişaf səviyyəsi o hala çatıb ki, artıq tərəflər demək olar ki, hətta xarici siyasət sahəsində eyni fikirləri səsləndirirlər: "Azərbaycanın İkinci Qarabağ müharibəsi dövründə Türkiyənin həm siyasi, həm mənəvi dəstəyinin böyük əhəmiyyəti oldu. Müharibə zamanı eyni zamanda Türkiyənin müdafiə sənayesinin böyük dəstəyi oldu. Həm Azərbaycanda, həm də Türkiyədə dövlət başçıları səviyyəsində keçirilən tədbirdə prezidentlərin iştirak etməsi iki dövlətin bir-birinə verdiyi böyük dəyərin növbəti göstəricisidir. Əlbəttə ki, Azərbaycan Ordusu Türkiyənin ordu sisteminə uyğun olaraq yenidən formalaşdırılır. Bu böyük bir inkişafdır. Düşünürəm ki, tərəflər arasında bu münasibətlər əslində tərəflərin gələcək inkişafının təminatı kimi qiymətləndirilə bilər. Bu səbəbdən Türkiyə-Azərbaycan münasibətlərinə baxdıqda sadəcə müsbət fikirlərə söykənə bilərik".

***Arzu Qurbanlı***

# "Bu cür verilişlərin yayımlanmasına icazə verilməməlidir"

**"Keçmişdə və ya indi narkotik vasitələrdən istifadə edən insanların həyatlarından bəhs edən müsahibələrin və ya reportajların yayımlanmasına ehtiyac yoxdur". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu bildirib.**

Onun sözlərinə görə, bu cür verlişlər heç də maarifləndirici xarakter daşımır: "Belə verlişləri yayımlanmamışdan qabaq mütləq şəkildə psixoloqdan məsləhət alınmalıdır. Çünki məhz psixoloqun rəyindən sonra dəqiq məlum olar ki, belə verlişləri yayımlamaq olar ya yox. Lakin bizdə çox təssüflər olsun ki, psixoloqların rəyi öyrənilmir. Təbii ki, bu kimi verlişləri qadağa qoymaq mümkün deyil. Ona görə ki, burada heç bir qayda pozuntusu yoxdur. Lakin mənəvi baxımdan bu kimi verlişlərin yayımlanmasına ehtiyac yoxdur. Bunun yerinə normal maarifləndirici proqramlara üstünlük



versələr daha yaxşı olar. Bununla yanaşıbelə verlişlərdə baxış sayısıda çox önəmli faktordur. Misal olaraq hər hansısa bir jurnalist narkotik vasitədən istifadə edən bir insan haqqında müsahibə hazırlayırsa və həmin materialın bir hissəsini "Tik-tok"-da paylaşır və bu çox baxış əldə edir. Bu səbəbdən də artıq bu kimi verlişlərə olan maraq getdikcə artır. Burada psixoloji bir məqam ondan ibarətdir ki, deməli insanlar bu kimi verlişlərə baxmağa daha çox meyillidirlər. Yaxşıolar ki, ziyalı insanlarımız belə verlişlərin yayımlanmasına icazə verməsinlər".

***Banuçiçək Hüseynli***

# Xalqımızın maddi-mənəvi sərvətinə çevrilmiş materialların vahid bazası yaradılacaq

*Dövlət başçısının Sərəncamı ilə "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə 1,0 (bir) milyon manat ayrılıb*



Azərbaycan Televiziyası uzun və şaxəli yol keçib. Yarandığı vaxtdan bu günə qədər tamaşaçıların tələbatını ödəmiş, onlara dolğun məlumatların çatdırılmasında operativliyi qoruyub saxlaya bilmişdir. Müasir dövrün çağırışlarına uyğun olaraq yenilənib və inkişaf dövrünü yaşayır. Elm və texnologiyanın inkişafı tələbatların ödənilməsində müstəsnadır. Son məlumatları, dünya panoramasını bir neçə dəqiqə ərzində tamaşaçı əldə edə bilir. Azərbaycanda - Şərqdə ilk dəfə yaradılan və milyonların seyrçisi olan Azərbaycan Televiziyasının yaranması Stalin rejimindən qurtuluş tapan sovet cəmiyyətində aşkarlığın rüşeymlərinin yenicə yaranan dövrünə təsadüf edirdi. Xalqımızın siyasi və mədəni həyatında böyük yenilik kimi yadda qalan Azərbaycan Televiziyası və Teleradio xalqımızın siyasi dünyagörüşünün formalaşmasına, mənəvi-mədəni həyatının yüksəlməsinə xidmət edib, onun ictimai-siyasi ideyalarının, yüksək əxlaqi dəyərlərinin, arzu və istəklərinin ifadəçisinə çevrilib.

Mürəkkəb və çətin dövrlərdə Azərbaycan Televiziyası inkişaf yolu keçib. Onun zəngin fondu və arxivi, tariximizlə bağlıdır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin audiovizual arxiv materiallarının rəqəmsallaşdırılması və vahid bazasının yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə məxsus AzTV, Mədəniyyət TV, İdman TV, "Azərbaycan Radiosu" və "Beynəlxalq Radio"nun ümumilikdə bir əsrə yaxın dövr ərzində formalaşmış zəngin audiovizual arxiv materiallarının keyfiyyətli, etibarlı və uzunmüddətli qorunub saxlanması işinin təkmilləşdirilməsi, əksər hissəsi Azərbaycan xalqının maddi-mənəvi sərvətinə çevrilmiş həmin materialların rəqəmsallaşdırılması və vahid bazasının yaradılması məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə 1,0 (bir) milyon manat ayrılıb.

Kifayət qədər təcrübəsi, zəngin fondu, müasir texniki təchizatı və peşəkar kadr potensialı kanalın uğurlu dövrünü yaşayır. Əlbəttə ki, Azərbaycan Televiziyasının uğurlarını qeyd edərkən 2009-cu il fevralın 1-dən efirə çıxan "İdman Azərbaycan" kanalını da qeyd etməliyik. Bu kanal idman ictimaiyyəti və idmansevərlərə gözəl hədiyyə oldu. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan "İdman Azərbaycan" Televiziyasının fəaliyyəti dövlətimizin idmana, gənclərin sağlam ruhda böyüməsinə verdiyi önəmin sübutudur. Artıq "İdman Azərbaycan" Televiziyası efir məkanında öz yerini çoxdan təsdiqləyib və fəaliyyət göstərdiyi zaman məsafəsində dövlətimizin idman siyasətinə uğurla xidmət edir. Kanal dünyanın hər yerindən bütün növ idman yarışlarını, müxtəlif çempionatları birbaşa, özü də yüksək peşəkarlıqla yayımlayır, idman xəbərlərini operativliklə tamaşaçılara çatdırır. Hər gün kanalda tamaşaçılara canlı xəbər buraxılışları, orijinal verilişlər, beynəlxalq və ölkədaxili yarış və turnirlər təqdim edilir, çempionatlar canlı yayımlanır. "İdman Azərbaycan" kanalı dünyada yeganə idman kanalıdır ki, heç bir ödəniş olmadan tamaşaçılarına idmanın bütün növləri üzrə proqramlar təqdim edir və açıq yayımdadır.

Əlbəttə ki, bu sırada 2010-cu ildə, Azərbaycan Televiziyasının 55 yaşının tamamında onun nəzdində Azərbaycan ziyalılarının və sənətçilərinin çoxdankı arzusu olan "Mədəniyyət" kanalı ilk dəfə tamaşaçıların görüşünə gəldi. Bu kanalın ərsəyə gəlməsi Prezident İlham Əliyevin mədəniyyətimizə qayğısının daha bir təzahürüdür. Bu gün "Mədəniyyət" kanalı Azərbaycan mədəniyyətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təbliğ edir, dünya mədəniyyətinin incilərini isə Azərbaycan tamaşaçılarına çatdırır. Bu kanalın verilişlərini izlədikcə, bir daha bu qənaətə gəlirsən ki, mədəniyyətimizin elə parlaq inciləri var ki, onlar yüz illər sonra da Azərbaycanı yüksək mərtəbədən təmsil edə bilər.

Dövlət başçısının Sərəncamı ilə Azərbaycan xalqının maddi-mənəvi sərvətinə çevrilmiş materialların rəqəmsallaşdırılması və vahid bazasının yaradılması zəngin audiovizual arxiv materiallarının keyfiyyətli, etibarlı və uzunmüddətli qorunub saxlanması işinə töhfə olacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "TEKNOFEST"

## Türkiyə ilə həmrəyliyimizin növbəti nümayişidir"

"Ölkəmizdə öz möhtəşəmliyi və əlamətdarlığı ilə yadda qalan "TEKNOFEST Azərbaycan" festivalı başa tutdu. Festivala maraq çox böyük idi, demək olar ki, respublikamızın hər yerindən ziyarətçilər bura axışırdı. Həmçinin festivalın peşəkarlar tərəfindən hazırlanması və keçirilməsi onun möhtəşəmliyini daha da artırırdı. Festival çərçivəsində keçirilən müsabiqələr, şagirdlərin və tələbələrin böyük şövqlə istəklə bura qatılması, özlərini sınaması gənclərimizin elmə, müasir texnologiyalara artan marağını bir daha təsdiq edir. Pilotsuz uçuş aparatları, robotexnika, peyk modelləşdirilməsi və digər sahələr üzrə gənclərə ideyalarını reallaşdırmaq imkanı verən festival onlarda elm naminə çalışmaq, yeniliklər etmək, sağlam mühitdə rəqabət aparmaq kimi mədəniyyətlərin formalaşmasında mühüm rol oynayacaq. İnanırıq ki, yarışlarda iştirak edən gənclər gələcəkdə elmi nailiyyətləri ilə bütün dünyaya səs salacaq, ölkəmizi ləyaqətlə təmsil edəcəklər. "TEKNOFEST Azərbaycan" çərçivəsində təşkil olunan sərgilər, hava şouları, konsertlər və əyləncə attraksionları ziyarətçilər tərəfindən maraqla qarşılandı və hamının könlünü oxşadı. Daha qürurverici məqam isə milli şahinlərimizin və qardaş ölkənin pilotlarının möhtəşəm hava şousu idi ki, çətin manevrlərin öhdəsindən ləyaqətlə gəlməklə izləyiciləri heyrətə gətirirdilər". Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.




Onun sözlərinə görə, 2018-ci ildən keçirilməyə başlayan "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının ildən-ilə nüfuzu artmaqdadır və beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb: "İlk olaraq Türkiyədən kənarda "TEKNOFEST"in Azərbaycanda təşkil olunması iki ölkə arasında olan qardaşlığı, dostluğu, strateji müttəfiqliyi əks etdirməklə yanaşı, həmçinin texnologiya sahəsində əməkdaşlığımızı da dərinləşdirəcək. Dövlətimizin başçısı cənab İlham Əliyevin və Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın "TEKNOFEST Azərbaycan"da iştirak edərək çıxış etmələri festivalın əhəmiyyətini bir daha ortaya qoymuş oldu, eləcə də ölkələrimizin birliyini və həmrəyliyini bir daha nümayiş etdirdi. Tarix sübut edir ki, Azərbaycan və Türkiyə hər zaman ortaq mövqedən çıxış edib, şad gündə də, dar gündə də bir yerdə olublar. 1918-ci ildə Bakının bolşevik işğalından azad edilməsi zamanı türkiyəli qardaşlarımız bizim köməyimizə yetişdi, şəhəri birlikdə azad etdilər, bu yolda şəhidlər verdilər. Bu, bizim qardaşlığımız üçün ən gözəl nümunə və örnəkdir. Tarixi Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində yenə də qardaşlarımız yanımızda oldular, bizə mənəvi-siyasi dəstək göstərdilər. Bu dəstək xalqımızın qələbəyə olan inamını xeyli artırdı".

"Azərbaycan və Türkiyə münasibətlərinin bu səviyyə çatmasında hər iki ölkənin prezidentlərinin xidmətləri danılmazdır. Dövlət başçılarının birliyi və həmrəyliyi, bir-birinə "qardaşım" deyərək müraciət etmələri xalqlarımız üçün də, dünya birliyi üçün də nümunədir. İmzalanan Şuşa Bəyannaməsi isə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edir, müttəfiqliyin geostrateji əhəmiyyətini yüksəldir. İnanırıq ki, bundan sonra da əlaqələrimiz bütün sahələrdə dinamik olaraq inkişaf edəcək, həmrəyliyimiz əbədi olacaq. Babalarımızın bizə miras qoyduğu bu birlik gələcək nəsillərimiz tərəfindən də davam etdiriləcək", - Milli Məclisin deputatı deyib.

***Banuçiçək Hüseynli***



## Dövlət Xidməti və MEDİA-nın birgə təşkilatçılığı ilə təlim keçirilib

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə iqtisadi sahədə fəaliyyət göstərən media nümayəndələrinin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə "Daşınmaz əmlakın qeydiyyatı" və "Dövlət əmlakının özəlləşdirilməsi" mövzularında təlim keçirilib. SİA-nın verdiyi məlumata görə, təlimçilər - Əmlak Məsələləri Dövlət Xidmətinin əməkdaşları Elnur Rzayev və Rəşad Əbləsənov daşınmaz əmlakın qeydiyyatı prosedurları, bu sahədə vətəndaşların daha çox istifadə etdiyi elektron xidmətlər və onlardan istifadə qaydaları, dövlət əmlakının özəlləşdirilməsi üsulları, özəlləşdirilmə prosesinin iqtisadiyyata verdiyi faydalar, üstünlüklər barədə təqdimatla çıxış ediblər.

Tədbirdə mövzularla bağlı müzakirələr aparılıb, jurnalistlərin sualları cavablandırılıb. Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim olunub. Sertifikatları KİV nümayəndələrinə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi müavini Rüstəm Şahbazaov və Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov təqdim ediblər.

## Saxta haker 394 nəfəri necə aldadıb? - DTX açıqladı

Sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində "Aztechnolog" adlı "İnstagram" səhifəsini idarə edən şəxslər tərəfindən maddi maraq zəminində istifadəçilərin müraciəti əsasında üçüncü şəxslərin "WhatsApp" tətbiqindəki yazışmalarının kibermüdaxilə yolu ilə gizli ələ keçirilməsi və izlənilməsi ilə bağlı yayılmış məlumatlar Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən nəzarətə götürülərək araşdırılıb. Bu barədə SİA-ya Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) mətbuat xidmətindən məlumat verilib. Məlum olmuşdur ki, 2000-ci il təvəllüdlü Bakı şəhər sakini Əsgərov Arif Həmid oğlu "İnstagram" sosial şəbəkəsində "Aztechnolog" (www.instagram.com/xakkerhuseyn) adı ilə qeydiyyatdan keçərək sözügedən səhifədə müəyyən pul müqabilində "WhatsApp" yazışmalarının ələ keçirilməsi və izlənilməsi məqsədilə elektron ünvan (keçid linki) təqdim edilməsinə dair bilərəkdən yalan məlumat yerləşdirmiş, bu xidmət üçün müraciət edənlər pul vəsaitlərini Arif Əsgərovun sərəncamında olan bank kartı hesabına köçürərək, ödəniş barədə qəbzlərin surətini qeyd olunan "İnstagram" səhifəsinə göndərmiş, lakin sonra həmin şəxslərin müvafiq səhifəni idarə edən şəxslə əlaqə yaratma cəhdləri baş tutmamış və onlara ödədikləri vəsaitin əvəzində heç bir xidmət təqdim edilməyib. Arif Əsgərov bu yolla 25 may 2022-ci il tarixədək olan müddət ərzində əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxs kimi gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən qanunsuz istifadə edilməklə belə tədbirlərin keçirilməsinə təhrik edib aldatdığı 394 nəfər şəxsin pul vəsaitlərini ələ keçirib. Arif Əsgərov Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə cinayət məsuliyyətinə cəlb olunub. Hazırda araşdırmalar davam etdirilir.

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi "QHT-dövlət əməkdaşlığında yeni çağırışlar: ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi" adlı respublika zona konfranslarının təşkilini davam etdirir.**

# QHT-dövlət münasibətlərinə həsr olunmuş növbəti Respublika zona konfransı Qəbələdə keçirilib






SİA xəbər verir ki, növbəti konfrans Qəbələ rayonunda keçirilib. Konfransda Azərbaycan Respublikası Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Prezident Administrasiyasının məsul əməkdaşları Rahu Şirinova və Əli Pənahov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvi Günel Səfərova, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin məsul əməkdaşları, adları çəkilən rayonların icra hakimiyyəti başçılarının müavinləri, Vətən müharibəsi veteranları və şəhid ailələri ilə işin təşkili şöbələrinin müdirləri, icra hakimiyyətləri yanında fəaliyyət göstərən ictimai şuraların üzvləri, Şəki, Qax, Zaqatala, Balakən, Oğuz, İsmayıllı və Ağdaş rayonlarında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının rəhbərləri iştirak ediblər.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva konfransı açıq elan edərək tədbirin proqramı haqqında geniş məlumat verib. O bildirib ki, bu gün sürətlə yeniləşən, keyfiyyətcə yeni mərhələyə qədəm qoyan ölkəmizdəki hüquqi dövlət quruculuğu prosesində atılan addımlar, söz, mətbuat, sərbəst toplaşmaq azadlığının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının kifayət qədər formalaşması, eləcə də konstruktiv ictimai tənqid və tənbeh üçün hər cür şəraitin yaradılması, məmur-vətəndaş münasibətlərinin ictimai və hüquqi normaya uyğun tənzimlənməsi insanların idarəetmə prosesinə cəlb olunmasına ən yüksək səviyyədə şərait yaradır. Bütövlükdə ictimai norma və qaydalar, sosial göstərişlər və hüquqi cəzalar kimi anlayışları özündə birləşdirən ictimai nəzarət həm də dövlət idarəçiliyinə bir institusional dəstəkdir.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev çıxış edərək, müasir dövrdə qeyri-hökumət təşkilatlarının vətəndaş cəmiyyəti quruculuğu və ölkənin demokratikləşməsi prosesinin vacib institutlarından birinə çevrildiyini vurğulayıb. O, dövlət orqanları ilə QHT sektorunun bərabərhüquqlu tərəfdaşlıq prinsipləri əsasında sıx əməkdaşlığının vətəndaş cəmiyyətinin inkişafı, ictimai iştirakçılığın təmin olunması, habelə milli maraqların qorunması üçün böyük əhəmiyyət kəsb etdiyini qeyd edib.

V.Quliyev QHT-dövlət münasibətlərində yeni mərhələnin başladığını bildirərək, Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə yeni yaradılmış Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinə və qarşısına qoyulmuş vəzifələrə diqqət çəkib.

Çıxış edən digər natiqlər Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Prezident Administrasiyasının məsul əməkdaşları Rahu Şirinova, Əli Pənahov və Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Günel Səfərova bildiriblər ki, zona toplantısı QHT nümayəndələri, ictimai şuraların üzvləri, habelə dövlət qurumları üçün faydalı olacaq və bu sahənin daha da təkmilləşməsinə böyük töhfə verəcək. Çıxışlardan sonra konfrans interaktiv müzakirələr əsasında davam edib, onların təklifləri dinlənilib, sualları cavablandırılıb. İctimai şura üzvləri mütəmadi olaraq təlimatlandırıcı seminarların keçirilməsinin vacibliyini vurğulayıblar.

# Geosiyasi mənzərədən
## KƏNARDA QALAN ERMƏNİSTAN

Dünyanın siyasi mənzərəsinə baxanda açıq-aşkar görünür ki, Ermənistan heç də bu mənzərədə özünə yer tapa bilmir. Bu işğalçı ölkənin bu zamana qədərki fəaliyyəti, işğalçılığı dövlət siyasəti olaraq qəbul etməsi, yenə də məkrli niyyətlərə meyilli olması artıq bütün dünyada ikrah yaradıb desək, yanılmarıq. Hazırda dünyada müşahidə olunan mənzərə heç də ermənilərin xeyrinə deyil və onlar özləri də kənarda qaldıqlarının fərqindədirlər. Elə bu səbəbdəndir ki, erməni xalqını küçə və meydanlardan yığışdırmaqda Ermənistan hakimiyyəti çətinlik çəkir. Bütün dünyada baş verən hadisələrə, Ermənistanın bu hadisələrdən kənarda qalmasına görə doğru addım atmaq, doğru yol seçmək əvəzinə, bu ölkənin hakimiyyəti ancaq müxalifəti təqib etməkdə davam edir.

İndi ermənilər özləri də çox yaxşı görür və müşahidə edirlər ki, ölkələr biri-birləri ilə münasibətləri normallaşdırmağa, daha da yaxşılaşdırmağa maraqlı olduqları halda, ölkələri əlaqələr quranlara, bu əlaqələri genişləndirənlərə qoşulmur və Ermənistan bu sırada, münasibətləri normallaşdıranlar sırasında yoxdur. Əksinə, Ermənistan bir ölkə olaraq daxili çəkişmələrlə məşğuldur və erməniləri bir az da qızışdıran elə budur. Bəlkə də sıravi ermənilər bu zamana qədər öz ölkələrində stabillik, sabitlik, inkişaf istiqamətində, digər ölkələrlə münasibətlərin normallaşdırılması yönündə bircə dənə addım görsəydilər, bu ölkədə bu boyda xaos yaranmazdı. Məsələ burasındadır ki, ermənilər geosiyasi mənzərədə özlərinə yer tapa bilməyən ölkələrinə görə özlərini çox kənarda hiss etdikləri üçün narahatdırlar və bundan sonrakı vəziyyətlərinin necə olacağı mənasında sıxıntıları da başadüşüləndir.

Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın öz ölkəsinin tezliklə İsraillə münasibətlərini normallaşdıracağına ümid etdiyini bildirməsi, sözün həqiqi mənasında ermənilərin narahatlığına səbəb olub və hiss olunur ki, onların kürkünə birə düşüb. "Türkiyə ilə İsrail arasında münasibətlərin daha müsbət səviyyəsinə çatmaq üçün addımlar atacağıq", deyən cənab Ərdoğanın Türkiyə və İsrail qazın Şərqi Aralıq dənizindən Türkiyə vasitəsilə Avropaya çatdırılması ilə bağlı danışıqlar aparılacağı barədə fikir söyləməsi, bu barədə "Yeni Şafak" nəşrinin sitat gətirməsi erməni cəmiyyətində rezonans doğurub. Türkiyə Prezidentinin İsrail tərəfinin hazır olduğunu bəyan etməsi barədə, Türkiyənin bu çərçivədə fəaliyyətini davam etdirdiyi haqda bildirməsi Qüdslə Ankaranın mövqelərinin yaxınlaşmasının sübutudur və ermənilərin yuxularını ərşə çəkən də budur. İndi ermənilər həm də narahat edən sual odur ki, görəsən hadisələr bununla məhdudlaşacaqmı? Məsələ burasındadır ki, məhdudlaşmayacağı tamamilə mümkündür və daha inandırıcı görünür. Ümumiyyətlə, ermənilərin həzm edə bilmədikləri hadisələrin gözləri önündə cərəyan etməsi, dünya düzənində özlərini görməmələri onları narahat etməyə bilməz. Məhz dünya geosiyasi xəritəsinin onların gözləri qarşısında tamamilə yeniden formatlaşdırılması, yeni ittifaqların, tandemlərin, blokların yaradılması, bunların hamısından Ermənistanın kənarda qalması ermənilər üçün də, onların ölkələri üçün də arzuolunan deyil və bu xalqın narahatlıqları da bu mənada anlaşılandır.

Bütün dünyada münasibətlərin formalaşdırılması, normallaşdırılması istiqamətində izlənilən müsbət tendensiyanın fonunda Ermənistanda nə baş verir? Ermənilər öz ölkələrində nəyi müşahidə edirlər? Onlar çox yaxşı görür və anlamağa başlayırlar ki, Ermənistan indi beynəlxalq əlaqələr, ən əsası da qonşuları ilə normal münasibətlər qurmaq əvəzinə yalnız daxili siyasi qarşıdurmalarla məşğuldur. Bu ölkənin daxilində hakimiyyət davası gedir, halbuki, Ermənistanın daha vacib, taleyüklü məsələləri var və bu ölkənin hakimiyyəti məhz bütün bunların həllinə can atmalı idi.



Yenə də Ermənistanda mitinqlər gözlənilir və hələ də bu ölkənin müxalifətinə yenidən etirazlar vəd edilib. Bu ölkənin hakimiyyəti də onlara öz təbirincə, öz anlayışına uyğun reaksiya verəcəyi qənaətindədir, yəni onlara qarşı təzyiqlərin tətbiq ediləcəyi təkzib edilə bilməz. Hələ də Ermənistan daxili çəkişmələrlə məşğuldur və uzun zaman bununla məşğul olacağını da inkar etmək mümkün deyil. Diplomatik arenada məğlubiyyət ardınca məğlubiyyət dadını yaşayan Ermənistan hələ bundan sonra daha böyük məğlubiyyətlər astanasındadır. Ermənistan bir ölkə olaraq xaos içindədir, qarşıdurmalar baş alıb gedir.

Kütlənin sırasında olanlar, yəni adi erməni xalqının sıravi nümayəndələri mitinqlərə çıxdıqda, etiraz aksiyalarına qoşulduqda özlərini haqlı hesab edirlər. Onlar düşünürlər ki, Ermənistan rəhbərliyi bu ölkənin acınacaqlı mövcud durumuna görə adekvat addımlar atmır. Bakıda bir neçə gün dalbadal "TEXNOFEST" festivalının keçirilməsi, orada təyyarələrin, helikopterlərin, zirehli texnikaların, pilotsuz uçuş aparatlarının, o cümlədən Bayraktar AKINCI və Bayraktar TB2 pilotsuz təyyarələrinin nümayiş etdirilməsi ermənilər tərəfindən mesaj olaraq qəbul olunur. Bir növ qorxu hissi də duyulmaqdadır. Türkiyənin Daxili İşlər Nazirliyi, Türkiyə Milli Təhsil Nazirliyi, Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyi, Türkiyə Müdafiə Sənayesi İdarəsi, müdafiə şirkətləri olan ASELSAN, Baykar, HAVELSAN, ROKETSAN, STM, TEI, Türk Aerokosmik Sənayesi və Türkiyə Kosmos Agentliyi festivalda öz stendlərini açmaları da erməni cəmiyyətini narahat etməyə bilməzdi və elə də oldu.

Eyni zamanda, Türkiyənin STM şirkətinin Bakıda Hərbi Dəniz Qüvvələrinin ehtiyacları üçün taktiki pilotsuz uçuş aparatları və dəniz platformalarını təqdim etməsi də işğalçı ölkədə narahatlıq doğurub. Türkiyə və Azərbaycanın birgə texnopark yaradacağı barədə məlum olduğu haqda özlərinin mətbuat səhifələrində rastlaşdıqları zaman ermənilərin halını təsəvvür etməmək mümkün deyil. Ələlxüsus, "Baykar"ın texniki direktoru Səlcuq Bayraktarın Şuşaya səfər etməsi haqda özlərinə məxsus mətbuat səifələrinin məlumat yayması erməni işğalçılarını tamamilə qorxuya salıb. "Dünya türklərin gücünü görsün, yerini bilsin", deyə Bayraktarın fikirləri barədə öz mətbuat səhifələrindən eşitdiklərindən həyəcana düşən ermənilər dünyanın heç bir ölkəsinin bu sözlərə reaksiya verməməsinə görə özlərindən çıxdıqlarını qəti şəkildə gizlətmirlər.

Bütün bunları, sadalananları müşahidə etdikləri halda Ermənistanın KTMT-dəki yerini belə ermənilər necə qiymətləndirə bilərlər? Bu sözügedən təşkilatın belə öz münasibəti işğalçı ölkədə bəllidir. Azərbaycan və Türkiyə qüdrətlə və məntiqi əsasla bir yerdədir və Ermənistanda da hamı bunu başa düşür. Bunu başa düşənlər öz ölkələrinin vəziyyətini müqaisə belə edə bilmirlər və sıxıntılarına da, ölkədə yaratdıqları xaosa da səbəb budur. Üstəlik, Rusiyadan, KTMT-dən, hətta ATƏT-in Minsk qrupunun üzvü olan ABŞ və Fransadan da gözləntiləri erməniləri qane etmir və bu arada Türkiyə və İsrail münasibətlərinin normallaşması da onlar üçün arzuolunan sayıla bilməz. Ermənistan hökumətinin heç bir əlaqələr qurmağa, dövlətlərlə, xüsusən də qonşu ölkələrlə münasibətləri normallaşdırmağa can atmaması, diqqətini yalnız müxalifətlə mübarizəyə yönəltməsi əslində, bu ölkənin geosiyasi mənzərədə kənarında qaldığını göstərir.

***İnam Hacıyev***

# Azərbaycan modeli "ASAN xidmət" dünyaya nümunədir







Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır. Təsadüfi deyil ki, müasir dövrümüzdə bir çox dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin olunub və bu proses sürətlə davam edir. Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb. Azərbaycan Prezidentinin rəhbərliyi və təşəbbüsü ilə 2012-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında inqilabi dəyişikliyə səbəb oldu. Bu gün ölkəmizin bir çox yerlərində Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Salyan və digər ərazilərdə "ASAN xidmət" mərkəzləri istifadəyə verilib. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 88 mindən çox vətəndaşın 52 milyondan çox müraciəti daxil olub. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə də vətəndaşlara xidmətlər göstərilir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

### BAKIDA 7 SAYLI "ASAN XİDMƏT" MƏRKƏZİNİN VƏ "BİLİM BAKI" MƏRKƏZİNİN AÇILIŞI GÖRÜLƏN İŞLƏRİN DAVAMIDIR

Ölkəmizdə xoşbəxt gələcəyimizə hesablanılan iri layihələr sırasında "ASAN xidmət"in özünəməxsus yeri var. Əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq olan "ASAN xidmət" mərkəzləri öz fəaliyyətini yüksək standartlar çərçivəsində qurur və inkişaf etdirir. Məhz bunun nəticəsidir ki, "ASAN xidmət" təcrübəsinin özünəməxsus hüquqi strukturu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir. İndiyədək Dövlət Agentliyi və tabeliyindəki qurumlar öz fəaliyyətləri çərçivəsində 15 ölkə və 2 beynəlxalq təşkilatla müqavilələr imzalayıblar. Bu günlərdə Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışı görülən işlərin davamıdır. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılışda iştirak ediblər. Əlbəttə ki, bu dövlət başçılarının birliyinin və həmrəyliyinin daha bir nümunəsidir. Paytaxtda tikilmiş yeni "ASAN Həyat" Kompleksi üç hissədən ibarətdir. Kompleksdə 7 saylı Bakı "ASAN xidmət" mərkəzi və "INNOLAND", "Bilim Bakı" mərkəzi və ASAN İnnovativ İnkişaf Mərkəzi, həmçinin Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Aparatının yeni inzibati binası yerləşir.

Tikintisinə 2019-cu ildə başlanılan kompleksin iki hissəsi artıq istifadəyə verildi və üçüncü hissə isə cari ilin sonunadək hazır olacaq. Kompleksdə yerləşən "ASAN xidmət" mərkəzi Bakıda yeddinci, ümumilikdə ölkə üzrə 23-cü mərkəzdir. Mərkəz Bakıda xidmətlərə artan ciddi tələbat nəzərə alınaraq inşa edilib və ərazi məhdudiyyəti olmadan vətəndaşlara xidmət göstərəcək. Ümumilikdə 288 əməkdaşın və 50 könüllünün çalışacağı mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 325-dən çox xidmət həyata keçiriləcək. Mərkəzdə "ABAD" publik hüquqi şəxsin sayca 11-ci etnobutiki, habelə 2-ci "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti də nəzərdə tutulur. "INNOLAND" Türkiyə, Macarıstan, Makedoniya, Koreya Respublikası, ABŞ, Almaniya, Litva və Estoniya kimi ölkələrdən olan təşkilatlarla beynəlxalq əməkdaşlıq qurub. Qeyd edək ki, "Bilim Bakı" mərkəzi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə təsisçisi Selçuk Bayraktar olan Türkiyə Texnologiya Komandası Vəqfi arasında imzalanmış əməkdaşlıq barədə protokola əsasən yaradılıb. Mərkəzin fəaliyyəti ümumtəhsil məktəblərinin 6-14 yaş arası şagirdlərinin elmə, innovasiyaya və texnologiyaya marağını və biliklərini artırmağa yönəlib, elmi biliklərin təcrübədə necə tətbiq olunduğunu müşahidə etmək imkanı yaradır. Mərkəzdə hər biri 20 şagird yerlik 6 laboratoriya fəaliyyət göstərəcək. Bunlar təbiət elmləri, texnologiya, riyaziyyat, astronomiya, kosmos və aviasiya, dizayn və sahibkarlıq laboratoriyalarıdır. "Bilim Bakı" mərkəzində perspektiv ehtiyacları nəzərə alan, layihə əsaslı, gündəlik həyat problemlərinin həllinə yönələn və şagirdlərə XXI əsrin bacarıqlarına yiyələnmək imkanı verən "Deneyap Texnologiya" proqramı həyata keçiriləcək. Xatırladaq ki, kompleksdə ASAN İnnovativ İnkişaf Mərkəzi də fəaliyyət göstərəcək. Bu mərkəzin əsas məqsədi qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət orqanlarında vətəndaşlara xidmət sahəsində kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə töhfə vermək, bilik və bacarıqların artırılması istiqamətində təlimlər həyata keçirməkdir.

### "AZƏRBAYCAN İNDİ İNTELLEKTUAL MƏHSULLARI HƏM YARADIR, HƏM DƏ İXRAC EDİR"

"ASAN xidmət"in təkcə Azərbaycanda deyil, digər ölkələrdə də tətbiqi genişlənir. Bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldıran "ASAN xidmət" dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi, doğrudan da, ictimai xidmətlər, ümumiyyətlə, ictimai əlaqələr sahəsində bir inqilab olub: "Bu gün dünyanın aparıcı maliyyə qurumları bizim təcrübəmizi çox yüksək qiymətləndirir və tövsiyə edirlər ki, bu təcrübə başqa ölkələrdə də tətbiq olunsun. Azərbaycan indi intellektual məhsulları həm yaradır, həm də ixrac edir. Bu, doğrudan da, çox böyük hadisədir". Azərbaycanın bu modelindən artıq dünya ölkələri bəhrələnir. Bir sıra beynəlxalq tərəfdaşlarla, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlığı qeyd olunmalıdır. Beynəlxalq qabaqcıl təcrübə kimi, bu gün "ASAN Xidmət"in fəaliyyəti Avropa Parlamenti, Böyük Britaniya parlamenti, Fransa, Almaniya və digər ölkələrdə yüksək dəyərləndirilir. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə də əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Dünyaya nümunə olan "ASAN Xidmət" modeli dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Bu gün ölkəmizdə mərkəzlərin sayı artmaqdadır. Qeyd edək ki, hazırda Azərbaycanda 22 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir, 5-nin isə inşası davam etdirilir. Dövlətimizin başçısının təşəbbüsü ilə yaradılan Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında təqdirəlayiqdir.

***Zümrüd BAYRAMOVA***

# "Zaman keçdikcə reket mediadan birdəfəlik qurtulacağıq"

**"Biz uzun illər Mətbuat Şurasında reket qəzetlərin qarşısını almaq üçün müzakirələr aparmışıq. Bununla bağlı komissiya var idi və sədri Vüqar Rəhimzadə idi. Gələn təkliflərin içərisində açıq görünürdü ki, insanları şantaj edən qəzetlər var". Bu sözləri SİA-ya açıqlamasında "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid deyib.**



Onun sözlərinə görə, həmin qəzetlərin siyahısı tutulurdu. Bu "qara siyahı" adlanırdı. Müəyyən dərəcədə biz bu kimi halların qarşısını ala bilmişdik. Lakin yeni kanallar və.s yarandıqdan sonra hansısa özünü tənzimləmə yolu ilə həll olunması mürəkkəbləşib. Hazırda Media Agentliyi yaradılıb. Onların həm nizamnamə, həm də etik kodeksi ilə bağlı gördükləri işlər təqdirəlayiqdir. Düşünürəm ki, bu kimi məsələləri zaman həll edəcək. Zaman keçdikcə yenə də ciddi, etibarlı, məsuliyyətli media diqqət mərkəzində olacaq və reket mediadan birdəfəlik qurtulacağıq".

***Səbinə Hüseynli***



# Hyuston şəhərinin meri Silvester Turner 28 May Müstəqillik Günü ilə bağlı bəyannamə imzalayıb

Amerika Birləşmiş Ştatlarının dördüncü ən böyük şəhəri olan Hyuston şəhərində 28 May Azərbaycanın Müstəqillik Günü elan edilib. Bu barədə Bakı-Hyuston Qardaşlaşmış Şəhərlər Assosiasiyasının prezidenti İradə Axundova məlumat verib. Məlumat verilib ki, şəhər meri Silvester Turner bununla bağlı bəyannamə imzalayıb. Sənəddə 1976-cı ildə Hyuston ilə Bakı şəhərlərinin qardaşlaşaraq sosial, peşə, təhsil və mədəni səviyyədə qarşılıqlı əlaqələr qurduğundan, hər iki şəhərin neftlə bağlılığından və onlar arasında ümumi nöqtələr olduğundan bəhs olunub. Bəyannamədə Azərbaycanın müstəqillik tarixindən də bəhs edilib, Azərbaycan Xalq Cümhuriyyəti bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi kimi təqdim olunub. Bəyannamədə eləcə də Texas ştatının Hyuston şəhərində yaşayan Azərbaycan icmasının aktiv fəaliyyətindən bəhs olunub və onların müxtəlif sahələrdə ABŞ-a töhfələr verməsi qeyd edilib.

ANALİTİK+AKTUAL

# Gürcüstanlı politoloq ermənilәri ”ağ yuyub-qara sәrdi”!

## *Vaja Şubitidze: "Ermənilərin başqalarının torpaqlarına iddiaları qanlarına hopub"*

**Ermənistanın daima qonşularının torpaqlarına göz dikməsi, ümumiyyətlə, onlarda belə bir xəstəliyin mövcud olması kimsəyə sirr deyil. Əbəs deyil ki, dünyanın bir çox millətlərinin və xalqlarının tanınmış şəxsiyyətləri zaman-zaman sözügedən xəstəlik haqqında tarixi kəlamlarını ictimailəşdiriblər.**



Bu arada, Gürcüstanın siyasi və tarixi elmlər doktoru, nüfuzlu gürcü analitiki, Qurucu David ədəbiyyat mükafatı laureatı, professor Vaja Şubitidze rusdilli caliber saytına həm regionda, həm də dünyada, eləcə də Ukraynada davam edən geosiyasi hadisələrə dair müsahibə verib. SİA həmin müsahibədə bəzi maraqlı fikirləri diqqətə çatdırır.

### ”Rusiya hər zaman xalqlar arasında var-gəllər edib, elə ermənilər də...”

İlk olaraq Rusiya-Ukrayna müharibəsi, ardınca isə Tbilisi ilə Kiyev arasındakı münasibətlərin soyuması haqqında bəhs edən gürcü politoloq hadisələrin necə başa çatmasına münasibətini açıqlayıb. Onun iddiasına görə yaranmış situasiyada əsas olaraq ruslar günahkardırlar və onlar iki qardaş xalqlar - gürcülərlə ukraynalılar arasında qəsdən nifaq yaradırlar. ”Rusiya hər zaman xalqlar arasında var-gəllər edib, eləcə də azərbaycanlılarla gürcülər arasında da. Ancaq bunu yalnız ruslar deyil, elə ermənilər də ediblər. Ancaq mən hesab edirəm ki, gürcülər və ukraynalılar arasında problemlər mütləq həll olunacaq, Rusiya tamamilə məğlubiyyətə uğradılacaq və bundan sonra gürcülərlə ukraynalılar bir-birləri ilə müstəqil münasibətlərini tənzimləyəcəklər”.

Gürcüstanın Aİ-yə və NATO-ya tamhüquqlu üzv olması ilə bağlı münasibətini açıqlayan Vaja Şubitidze hər şeyin situasiyadan asılı olduğunu bildirib: ”Əgər siyasi vaciblik yaranarsa Gürcüstanı tez şəkildə Aİ-yə və NATO-ya üzv edəcəklər, necə ki, indi İsveç və Finlandiyanı qəbul etməyə hazırlaşırlar. Lakin ən əvvəl Gürcüstan Avropa İttifaqının və NATO-nun qarşısına qoyduğu şərtlərinə əməl etməlidir. Heç kim Gürcüstanla Ukraynanın Aİ-yə üzv olmaq üçün müraciət sənədi təqdim edəcəyini gözləmirdi. Lakin hər şey Rusiyanın nə qədər tez neytrallaşdırılmasından asılıdır”.

### ”Qardaş olduğumuz üçün biz gərək bir-birimizin qayğısını çəkək”

Gürcü professor Azərbaycan-Türkiyə-Gürcüstan əməkdaşlıq formatına da münasibətini açıqlayıb və bu məsələyə kifayət qədər müsbət yanaşdığını bildirib və qeyd edib ki, həmin formatdan orada iştirak edən hər üç ölkə udur. Eyni zamanda, Gürcüstan-Azərbaycan münasibətləri haqqında da danışan politoloq həmin münasibətlərin çox yüksək səviyyədə olduğunu bildirib və bunu strateji partnyorluq kimi qiymətləndirib: ”Məni narahat edən yeganə məsələ odur ki, Azərbaycanda, müəyyən ərazilərdə kompakt şəraitdə yaşayan gürcülər öz identikliklərini, xüsusən də soyadlarını saxlamalıdırlar və məktəblərdə gürcü dilində təhsil almalıdırlar. Qardaş olduğumuz üçün biz gərək bir-birimizin qayğısını çəkək”.

### ”Əks halda, gürcülər erməniləri qırıb-çatacaqdılar”

Vaja Şubitidze daha bir maraqlı suala cavab verib. Belə ki, 1918-ci ildə - Ermənistanın respublika olaraq elan edildiyi zaman ermənilərin Azərbaycana və Gürcüstana qarşı ərazi iddiaları ilə çıxış etmələrinin səbəblərini açıqlayan gürcü politoloqu və tarixçisi qeyd edib ki, əslində ermənilər ərazi iddialarını hələ 19-cu əsrin ortalarından irəli sürməyə başlayıblar: ”1918-ci ildə onlar Gürcüstana qarşı müharibəyə başladılar, ancaq dağıdıcı zərbələrə məruz qaldılar. Onları həmin vaxt İngiltərə xilas etdi. Əks halda gürcülər erməniləri qırıb-çatacaqdılar. Ermənilərin başqalarının torpaqlarına - Azərbaycan və Gürcüstan torpaqlarına iddiaları qanlarına hopub”.

Eyni zamanda, ermənilərin gürcü kilsələrinə iddialarında da münasibətini açıqlayan Gürcüstanlı professora görə, ermənilərin başqalarının mədəni irslərinə göz dikmələri, xəyallar qurmaları əbəsdir: ”Əgər onlar dayanmasalar bu zaman hər şeylərini itirəcəklər. Bu gün Abxaziya əhalisinin böyük hissəsini ermənilər təşkil edirlər. Onlar abxazların getmələrində və bu ərazilərin onlara qalmalarında maraqlıdırlar. Ona görə də abxazlar deyiblər ki, gürcülərlə barışana qədər ermənilərlə döyüşməli olacaqlar”.

### ”Gürcüstanın inkişafı Osetiyasız və Abxaziyasız mümkün deyil”

Gürcüstanın Lori vilayətinin geri qaytarılması üçün hansı istiqamətdə fəaliyyət göstərməsinə gəlincə, Vaja Şubitidze bildirib ki, hazırda onlar (gürcülər) bu haqda düşünmürlər, indi əsas məsələ Abxaziya ilə Osetiyanı geri qaytarmaqdan ibarətdir: ”Bu gün Gürcüstan hələ ki, buna hazır deyil. Özü də o torpaqları sülh yolu ilə qaytarmaq lazımdır. Rusiyanın məğlubiyyətindən sonra o öz hərbi birləşmələrini Qarabağdan, həmçinin Sxinvalidən və Abxaziyadan çıxaracaq. Osetinlər və abxazlar üçün Gürcüstanın tərkibində qalmaq onlar üçün daha yaxşı olacaq. Onlar bu vasitə ilə öz identikliklərini, dillərini və mədəniyyətlərini saxlamağa müvəffəq ola bilərlər. Gürcüstanın inkişafı Osetiyasız və Abxaziyasız mümkün deyil”.

### ”Əgər Ermənistan özünün imperialistlik iştahasına qalib gələ bilərsə...”

Ermənilərlə azərbaycanlılar arasında sülhün bərqərar olması mümkünlüyünə, yaxud qeyri-mümkünlüyünə də toxunan gürcü professor bunun yalnız bir halda mümkün olacağını qeyd edib: ”Əgər Ermənistan özünün imperialistlik iştahasına qalib gələ bilərsə...”

Eləcə də sonuncu Brüssel görüşü ilə bağlı sualı cavablandıran müsahibə görə: ”Paşinyan yaxşı bilir ki, Qarabağdan imtina edəcəyi halda onun problemləri yaranacaq və belə bir vəziyyət Ermənistanın iqtisadi inkişafını tamamilə dayandıracaq. Lakin o, bu haqda xalqına danışmaqdan qorxur, ona görə ki, Ermənistanda narazılıqlar artır”, deyə maraqlı proqnozunu irəli sürüb.

**Rövşən RƏSULOV**

# “Türkiyə-Azərbaycan birliyi öz gücünü göstərir”

## *Politoloq Elşad Həsənovun SİA-ya verdiyi müsahibəni təqdim edirik:*



***- "Teknofest" festivalının önəm və əhəmiyyəti nədən ibarətdir?***

- Son dövrlərdə dünyanın gözü Azərbaycandadır. Biz 44 günlük Vətən müharibəsində qələbə çaldıq. Bu gün Azərbaycanın dünyaya verdiyi töhfələr çox böyükdür. Ona görə də Azərbaycan bu gün dünyanın diqqət mərkəzindədir. 28 mayda ”Teknofest”in keçirilməsi bayramımıza bayram qatdı. Burada iki qardaş Liderin gənclərə və xalqa müraciəti oldu. Bu müraicətlərdə çox gözəl mesajlar verildi. Bu istilik və doğmalıq Azərbaycanla Türkiyəni biri-birinə bağlayır. Biz eyni kökdən olan bir xalqıq. Bu iki millət son dövrlərdə çox yaxınlaşdılar.

***- Festivaldan hansı dövlətlər narazı qaldı?***

- ”Teknofest” ilk dəfə Azərbaycanda keçirilib. Bu da təbii ki, düşmən qüvvələrdə qıcıq yaradıb. Çünki Azərbaycan Türkiyə ilə birlikdə yeni texnoloji və analoqu olmayan silahlar yaradır. Bu silahlarla da öz ölkəsinin sərhədlərini qoruyur. Bu da Ermənistanda qıcıq yaratdı və onlar buna öz etirazını bildirdilər. Bütün bunlara rəğmən Türkiyə Azərbaycan birliyi öz gücünü göstərir.

***- Sizcə Ermənistandakı aksiyalar nəticəsində Nikol Paşinyan hakimiyyətdən devrilə bilər?***

- Artıq 1 aydır ki, mütəmadi olaraq Ermənistan müxalifəti İrəvanda mitinqlər təşkil edir. Lakin buna nail ola bilmirlər. Onlar Rusiyada yaşayan erməni lobbisindən maliyyə yardımı alırlar. Onların ən çox çıxdığı mitinq 8 min nəfərdən ibarət olur. İndi isə səngiyərək 4-5 min nəfərdən ibarət olur. Bu qüvvə ilə Paşinyanı devirmək mümkün deyil. 44 günlük müharibədən sonra Ermənistan məğlub tərəf olaraq müxalifətin tələbi ilə seçkilər keçirildi. Məğlub olmuş Ermənistanın baş naziri seçkilərdə qalib gəldi. Bu gün Ermənistanda yaşayan ermənilər müharibə istəmirlər. Onlar insan kimi yaşamaq istəyir.

***- Ermənistanı müharibə üçün kim təti̇kləyir?***

- Onları Qarabağ klanı və Moskvada olan anti-türk erməni lobbisi qızışdırır. Onlar bu işi daha da alovlandırmaq istəyirlər. Lakin buna müvəffəq ola bilmirlər.

***- Sizcə, Qarabağda olan ermənilərlə birgə yaşayış baş tutacaq?***

- Xalq və dövlət olaraq biz buna hazırıq. Çünki biz tolerant xalqıq və qədimdən belə yaşamışıq. Bu gün Azərbaycanda çoxlu xalqlar yaşayır. Bu gün Azərbaycan ərazisində 30 mindən çox erməni yaşayır. Onlara kim nə deyir? Biz Qarabağı heçkimə verəsi deyilik. Ora bizim torpağımızdır.

***- Azərbaycan rus sülhməramlılarına nə dərəcədə güvənməlidir?***

- Biz onları ürəkdən istəmirik. Məsələnin görünməyən tərəfləri var. Biz sülhməramlıların gəlməsinə məcbur idik. Rusiya ilə müttəfiqlik müqaviləsində bizi qınayanlar oldu. Əksinə, bu işdə Azərbaycan xalqının milli mənafeyini və onu təhlükədən qoruyan cənab Prezidentdir. Biz həmin müqaviləni imzalamalıydıq. Cənab Prezident ölkəsinin xilası üçün bu müqaviləni imzaladı.

**Ayşən Vəli**

# “Xüsusilə tənqidi mövzular televiziya kanallarında çoxalmalıdır”

“Şərti olaraq reket adlandırdığımız medianın yeni teknologiyaların imkanlarından geniş istifadə etməsinin qarşısını almaq praktik cəhətdən mümkün deyil”. Bu fikirləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət bildirib.

Onun sözlərinə görə, bu mümkün deyil, bu sahə sərbəstdir: ”Yeni istənilən şəxs istənilən məqsədlərlə həmin texnologiyalardan istifadə edə bilər. Bu baxımdan Azərbaycandakı vəziyyət də istisna deyil, burada da sətbəstlikdir. Ona görə də reket dediklərimiz burdan da sui istifadə edirlər.



Bununla bağlı ciddi tədbirlərin görüldüyünü müşahidə etməmişik. Amma çıxış yolları ilə bağlı illərlə dediyim fikri yenidən təkrarlamaq istəyirəm. Xüsusilə də televiziyada alternativ fikirlərə daha geniş yer verilməsi vəziyyətdən çıxış yollarından biridir. Ona görə ki, harda tənqidə yer verilirsə tamaşaçı da, istifadəçi də oraya üz tutur. Bu reketlər də həmin o boşluğu doldurmaq üçün daha çox tənqid üzərində işlərini qururlar və bunu da tamaşaçı toplayırlar. O tamaşaçı toplanılmasa onların fəaliyyət göstərməsi mümkün deyil. Boşuna fəaliyyət göstərəcəklər və nəticə əldə etmədikləri üçün bundan əl çəkəcəklər. Ona görə də xüsusilə tənqidi mövzular televiziya kanallarında çoxalmalıdır. Əlbəttə cəzalar, qadağalar da var, amma onlar o qədər də keçərli deyil. Birini cəzalandırırlar digərləri başlayır. Bu adamların sayı çox olduğu təqdirdə onları cəzalandırmaq da mümkün olmur. Hamısını operativ şəkildə aşkarlamaq mümkün olmur. Ona görə də tənqidlər televiziyada iftifadə edilməlidir. Belə olduğu təqdirdə reketlə məşğul olanlar da yaşav-yavaş azalacaqlar. Bir müddət sonra bunun mənasız bir fəaliyyət olduğunu anlayacaqlar”.

**Abutel İlhamqızı**

# "Avropa İttifaqı Ermənistana təzyiqlərini artırmalıdır"

**"Ermənistan xarici işlər naziri danışıqları sabotaj edən açıqlamalar verirlər. Brüsseldə əldə olunan razılaşmalar konkret olaraq həyata keçirilməlidir. Yəni sərhədlərin müəyyənləşdirilməsi məsələsi həyata keçirilməlidir". Bunu politoloq Məhəmməd Əsədullazadə SİA-ya açıqlamasında deyib.**

Onun sözlərinə görə, Ermənistan tərəfinin açıqlamalarından aydın olur ki, qarşı tərəf sərhədlərin delimitasiya və demarkasiyasında maraqlı deyil: "Yenə də müxtəlif təkliflər irəli sürürlər. Qoşunların sərhəddən geri çəkilməsini və həmçinin Qarabağın status məsələsini qabardırlar. Təbii ki, bu da danışıqlar prosesini əngəlləmək məqsədi daşıyır. Ermənistandan da biz bunu gözləyirdik. Çünki Ermənistan tərəfi hələ sülhə hazır deyil. Səbəb də Ermənistanın Rusiyadan asılı olmasıdır".

Məhəmməd Əsədullazadə onu da bildirib ki, Ermənistanın hərbi birləşmələri Basarkeçər istiqamətində Kəlbəcər rayonundakı Azərbaycan əsgərlərinin mövqelərini atəşə tuturlar: "Ermənistan tərəfi danışıqlar zamanı başqa bir məsələ deyir, amma danışıqlardan sonra isə tamamilə başqa bir fikir irəli sürür. Həmçinin sərhəddə silaha əl atır. Yəni bu o deməkdir ki, artıq Ermənistanla sülh danışıqları ilin axırına kimi müsbət nəticə verməyəcək və Azərbaycan tərəfi konkret olaraq Ermənistana bütün istiqamətlərdə təzyiqlər etməlidir. Əgər onlar Qarabağın statusunu deyib, duracaqlarsa heç bir danışıqlardan və əldə olunmuş razılaşmaların reallaşmasından söhbət gedə bilməz. İlk növbədə Avropa İttifaqı Ermənistana təzyiqlərini artırmalıdır. Çünki Avropa İttifaqının region siyasətini Ermənistan sobataj edir və artıq Avropa İttifaqı da bununla bağlı ölçü götürməlidir. Qeyd etdiyim kimi erməni baş nazir Paşinyan hakim rejimi görüş zamanı başaq cür danışır, Yerevana gələndən sonra isə başqa fikirlər söyləyir. Ona görə də, belə danışıqlar imitasiya və manipülasyadır. Bunun da qarşısını almaq üçün Ermənistana bütün variantlarda təzyiq etmək lazımdır".

***Gülyana***



# "AXCP və Müsavat kənar qüvvələrdən asılıdır və onların diktəsi ilə oturub dururlar"

"Azərbaycan iqtidarı ölkəmizdə fəaliyyət göstərən müxalif siyasi partiyaları siyasi dialoqa dəvət edir və gündəliyimizdə duran məsələlərin müzakirəsi aparılır. Bu dialoqa AXCP və Müsavatdan başqa bütün siyasi partiyalar qoşulub və siyasi baxışları müxtəlif olsa da, ölkənin taleyüklü məsələlərin həllində həmrəy olduğunu nümayiş etdirilir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, AXCP və Müsavat bu siyasi dialoqdan imtina edir və özlərinin radikal mövqedə olduğunu göstərməyə çalışırlar: "Təbii ki, bu, onu göstərir ki, AXCP və Müsavatın iddiaları daha böyükdür, onlar hansısa kənar qüvvələrdən asılıdır və onların diktəsi ilə oturub dururlar. Bu gün Azərbaycan tam şəkildə siyasi və iqtisadi müstəqil ölkədir. Bu müstəqilliyi biz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qazanmışıq və Prezident İlham Əliyevin rəhbərliyi altında möhkəmlətmişik. Amma AXCP və Müsavatın iqtidarda olduğu illərdə sovetlər dağılaraq ikinci dəfə müstəqilliyə qovuşsaq da, xalqımız bunu heç də hiss etmədi. Bu gün böyük iddialarla yaşayan və ölkədə gedən inkişaf proseslərinə qoşulmayan o vaxtkı iqtidarın başı 90-cı illərin əvvəlində talançılıqla qarışıq olduğundan torpaqlar sürətlə işğal olunur, ölkə vətəndaş müharibəsi səviyyəsinə gəlmişdi. Bu gün isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xalqımız onların verdiyi torpaqları geri almış və qalib ölkəyə çevrilmişik. Onu da qeyd etmək istəyirəm ki, heç bir qüvvə bu gün müstəqil və güclü Azərbaycanın qazandığı uğurlarına kölgə gətirə bilməz. Ölkəmizin inkişafı, müstəqilliyinin əbədi olması naminə bizimlə həmrəy olan bütün siyasi partiyalarla dialoq mühütündə daha böyük uğurlara nail olacağıq. Amma bu yolda bizə mane olmaq istəyən hər hansı bir qüvvəyə ölkəmizin siyasi meydanında yer yoxdur və yenidən öz radikal ideyaların reallaşdırılmasına xalqımız heç vaxt imkan verməyəcəkdir".

***Gülyana***

# Meydan Babacanyanın dediyi zibillərdən təmizlənəcək...

**"...Məlum olduğu kimi, parlament müxalifəti parlamentə Ermənistanın maraqları və mövcud durumu ilə heç bir əlaqəsi olmayan hakimiyyətin təqdim etdiyi süni və mənasız gündəmlə deyil, sırf öz gündəmi ilə qayıtmağa hazırlaşdıqlarını bəyan edib". SİA-nın erməni saytlarından əldə etdiyi məlumata görə, bu barədə "Past" nəşri yazıb. Nəşrin yazdığına görə, iyunun 3-ü saat 16- da müxalifətin təşəbbüsü ilə parlamentin növbədənkənar iclasının keçirilməsi nəzərdə tutulub. O da bildirilir ki, iclasın gündəliyində bir məsələ var - Ermənistan-Azərbaycan və Ermənistan-Türkiyə münasibətləri ilə bağlı bəyanat layihəsi.**





"Past" guya parlament çoxluğunun artıq bu görüşdə iştirak etməyəcəyini də bəyan edib. Buna baxmayaraq, nəşr, hakimiyyət bu günə kifayət qədər ciddi hazırlaşdığını da gizlətmir.

...Üstəlik, Nikol Paşinyan parlamentdə istehza ilə "müxalifətin sona qədər köhnəlməsi üçün ona xüsusi müdaxilə etməyə" ehtiyac olmadığını da bildirib. Amma, bununla belə o, müxalifət hərəkatının indiyə qədər "yıxılmamasından" da guya çox ciddi narahatdır.

Bunu da "Past" yazır və Nikol Paşinyanın istefasını tələb edən Müqavimət Hərəkatının üzvləri arasındakı polislərlə son toqquşmada həbs olunan 8 nəfər ən fəalın həbsini hakimiyyətin mitinqçilərə "xox" gəlməsilə yanaşı, həm də onyun qorxaqlığı kimi təqdim edir.

Nəşrə görə, Nikol hələ də, ətrafına yığılan Arman Babacanyan kimi əvvəli fərari olmuşlara, onların dəstəyinə ümid edir. Yeri gəlmişkən, Ermənistanda "Partiya namine!" fraksiyasının lideri Arman Babacanyan ötən gün Fransa meydanında yığılan erməniləri zibil adlandırıb.

Təbi ki, bu da zibil adını götürmək istəməyən erməniləri bərk qəzəbləndirib. Onlar Nikol kimi siyasətə jurnalistikadan gələn "dezertir" Babacanyanın da Nikolu gözləyən aqibətlə üzləşə biləcəyini istisna etməyiblər.

Amma erməni nəşri hakimiyyətin iyunun 3-ünə kifayət qədər ciddi hazırlaşdığını təkrarlamaqla, meydana yığılanlara xəbərdarlıq etməkdə davam edir. "Past" iqtidardakı mənbələrinə istinadən, həmən günədək Fransa meydanını "azad etmək", qiymətindən asılı olmayaraq alınan və ya "prokata" götürülən bütün çadırları yığışdırmaq niyyətindədir.

"...Bizdə də məlumat var ki, Nikol artıq Ermənistanda akkreditə olunmuş Qərbli səfirləri də öz qərarı ilə bağlı məlumatlandırıb. Deyilənə görə, mitinqçilərə qarşı çox sərt tədbirlər görüləcək". Bunu da "Past" nəşri yazıb.

Yenə də, deyilənə görə, bu günlərdə Paşinyan İrəvanda çoxlu sayda polisi cəmləyib. Çünki, onun hakimiyyətinin yeganə dayağı polislərdir. Bunu İrəvandakılar da görür. Onu da deyirlər ki, İrəvana yaxın rayonların heç birində polis qalmayıb, hamısını yığıb töküblər İrəvanın mərkəzinə.

...Nikolun dayağı demişkən,.. "Hayastan" müxalifət fraksiyasından olan deputat Artur Kazinyan o gün "Facebook" səhifəsində Nikolun təkcə may ayında erməni polisinə 6,5 milyon dollar bonus payladığını bildirib.

...Bunu artıq mən deyirəm, doğrudan da, ermənilər əbəs yerə Ermənistanı "dünya demokratiyasının mərkəzi" hesab etmirlər, belə ki, bu ölkədə nə iş görülürsə, ilk olaraq erməni xalqı məlumatlandırılır. Yoxsa, Kazinyan polisə paylanan bonusun miqdarını hardan bilərdi, hıy?

***Ağasəf Babayev***

# Tüstülənən ölüm

## 31 may- Beynəlxalq Tütünsüz Gündür




Bu gün dünyada 1,5 milyarddan çox insan siqaret çəkir. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, tütün məmulatlarından istifadə hər il azı 5 milyon insanın həyatına son qoyur. 2030-ci ildə isə, bu rəqəmin 2 dəfə artacağı gözlənilir.

### Dəhşət statistikası

Dünyada ən çox siqaret istehsal edən ölkə, kişilərin 60%-inin, qadınların isə 8%-inin siqaret çəkdiyi Çindir. Bu ölkədə təxminən 350 milyon siqaret çəkən yaşayır. Bununla əlaqədar olaraq hər il Çində 750 000 insan siqaretin səbəb olduğu xəstəliklərdən həyatını itirir. Birləşmiş Ştatlarda 50 milyona yaxın adam siqaret çəkir.

Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, narkotik və siqaretdən istifadədən ölüm hadisələrinin sayı 3-cü yerdə qərarlaşır. Təəssüfedici haldır ki, bu gün dünya üzrə siqaret çəkənlərin 20 faizini qadınlar təşkil edir. Bu qadınlarda isə ən çox uşaqlıq yolu xərçənginin baş qaldırması müşahidə olunur.

Statistik məlumatlar Azərbaycan əhalisinin siqaret çəkməkdə heç də digər ölkələrdən geri qalmadığını göstərir. Təqdiqatlara görə, ölkədə hər 7-8 nəfərdən biri siqaret çəkən hesab olunur. Beləliklə də, ümumilikdə 1,5 milyon nəfərə yaxın vətəndaşımızın canına ziyan vurduğu ortaya çıxır.

Azərbaycanda siqaretin yaratdığı xəstəliklərdən ölənlərin sayı haqda dəqiq məlumatlar olmasa da, güman etmək olar ki, minlərlə vətəndaşımız məhz bu zərərli vərdişdən dünyasını dəyişir. Bu sıraya daxil olanların əksəriyyətini isə gənclər təşkil edir. Qadınların çəkisi hələlik 1 faiz civarında olsa da, son vaxtlar bizdə də siqaret çəkən qadınların sayı artır.

### Mehriban düşmən

Ümumdünya Səhiyyə Təşkilatı dünyada ən böyük sağlamlıq probleminin siqaret olduğunu elan edib. Tədqiqatların nəticəsi göstərib ki, siqaretin yaratdığı problemlər, əsasən nikotinlə yox, onun tərkibindəki yanmayan maddələrlə bağlıdır. Bu maddələr tütün tüstüsü ilə orqanizmə daxil olur və müxtəlif xəstəliklər yaradır.

Tütün tüstüsünün bir qullabında 4000 kimyəvi maddə var. Onların bir hissəsi zəhərli olur, digər hissəsi isə orqanizmdə toxuma səviyyəsində dəyişikliklər edir. Ən dağıdıcı təsiri isə qətran göstərir. Qətranın 70 faizi ağciyərlərə toplaşır. Bundan başqa, tütün tüstüsünün qətranı dişlərin və dərinin rəngini də dəyişir.

Karbon monooksid (CO) isə siqaretin yanması prosesində daim yaranan qazdır. CO qanda oksigen dövranını pozur və hemoqlobinlə oksigendən daha tez reaksiyaya girir. Siqaret çəkənlərdə tez-tez rast gəlinən təngnəfəslik də CO-nun zərərli təsirindəndir. Amma siqaretə aludəçiliyi məhz nikotin yaradır.




Siqaret tüstüsü insan orqanizmində yod çatışmazlığının güclənməsinə təkan verir. Tütünün tərkibindəki dağıdıcı maddə qalxanvarı vəzin yodla qidalanmasının qarşısını alır. Yod çatışmazlığı orqanizmdə mənfi kimyəvi maddələr dəyişikliyini sürətləndirir, qalxanvarı vəzin hüceyrə toxumalarında fəal şişlərin əmələ gəlməsinə təkan verir, tənəffüs, ağız-burun nahiyələrində və udlaq sistemində ciddi pozuntulara səbəb olur.

### Xərçəngə ən qısa yol

Tütün ağ ciyərlərdə xərçəng xəstəliyinin yaranmasının əsas səbəbkarı hesab edilir. Siqaret çəkmək habelə, ürək xəstəlikləri, iflic və xərçəng xəstəliklərinin digər formalarının yaranmasına gətirib çıxarır. Tütün tüstüsündəki 43 komponent xərçəngin yaranmasına gətirib çıxarır. Son elmi tədqiqatlara görə, ağ ciyərdə xərçəng xəstəliyinin yaranmasına azı 80 faiz siqaret çəkmək səbəb olur. Ağız boşluğu, qida borusu, böyrək, dalaq və mədəaltı vəzidə xərçəng xəstəliyi çox hallarda siqaret çəkmək nəticəsində əmələ gəlir.

İnsanlar siqaretin tərkibində olan nikotinə getdikcə daha çox alışırlar. Nikotin alkoqol və kokain qədər güclü təsirə malikdir və asılılıq yaradan maddədir. Siqaret çəkənlərdə xərçəng xəstəliyinə yoluxma labüdlüyü, onun ölümə doğru riski və inkişaf sürəti çəkməyənlərə nisbətən 60 faizdən artıqdır.

### Siqaret hansı xəstəliklər törədir?

Elmi araşdırmalara görə, 5 siqaretdə insanı öldürəcək həcmdə nikotin var. Hər siqareti çəkərkən insanın orqanizminə 1-2 milliqram nikotin gedir. Lakin tütünün tərkibində ən qorxulu maddə nikotin deyil. Onun tərkibində qətran, ammonyak, arsenik, aseton kimi dəhşətli maddələr var.

Siqaretin səbəb olduğu xəstəliklərin tam olmayan siyahısı adamı dəhşətə gətirir:

**1.** Ürək xəstəlikləri - Siqaret çəkənlərin ürək xəstəliyinə tutulma riski çəkməyənlərə nisbətdə 4 qat daha çoxdur.

**2.** Qırtlaq xərçəngi - Gündə 25 ədəd siqaret çəkmək qırtlaq xərçənginə tutulma riskini 30 dəfə artırır.

**3.** Boğaz xərçəngi - Bu xəstəliyi 80% hallarda siqaret səbəb olur.

**4.** Mədə xərçəngi - Siqaret çəkənlərin mədə və ya bağırsaq xərçənginə tutulma riski çəkməyənlərdən 2 qat daha çoxdur.

**5.** Qaraciyər xərçəngi - Bu xəstəliyin 80%-i siqaretin təsirindən olur.

**6.** Menapoz - Siqaret çəkən qadınlarda vaxtından 5-10 il əvvəl menapoz baş verir. Bu da sümüklərin daha tez incəlməsinə və əriməsinə səbəb olur.

**7.** Anormal doğum - Gündə yalnız 5 ədəd siqaret çəkən hamilə bir qadının olduqca kiçik və sağlam olmayan bir körpə doğma riski son dərəcə yüksəkdir.

**8.** Şəkər xəstəliyi - Siqaret çəkmək bədənin insulin ifraz etmə qabiliyyətini azaldır. Bu da şəkər xəstəliyinə yol açır.

**9.** Qanqren - Ağciyərlər zəiflədiyi üçün, bədənə çox az oksigen yayılır. İnsan bədəni bu çox az miqdardakı oksigenlə daha vacib daxili orqanları təmin etmək məcburiyyətində qalır. Buna görə ürəyə ən uzaq orqanlar olan barmaq uclarından etibarən hüceyrələr sürətlə zəncirvari olaraq ölür.

**10.** Qida borusu xərçəngi - Bu xərçəngə tutulmağın səbəbi məhz siqaret çəkməkdir.

Siqaretin təkcə fiziki deyil, psixoloji problemlər yaratdığı da aşkar olunub. Elmi tədqiqatlara görə, siqaretdən istifadə edən şəxsin beyni informasiya qəbul etmə qabiliyyətini sürətlə itirir, reaksiya qabiliyyəti xeyli zəifləyir.

### Siqaretlə mübarizədə təbliğatın rolu

Siqareti tərgidənlərin sayını artırmaq üçün tütünün ziyanı barədə əhali arasında geniş təbliğat işi aparılmalıdır. Təcrübə göstərir ki, yalnız geniş təbliğat aparmaqla siqaretə alışanları ondan uzaqlaşdırmaq mümkündür.

Artıq bir çox dövlətlərdə,o cümlədən Azərbaycanda siqareti qapalı məkanlarda çəkmək qadağan edilib, bu kimi hal baş versə, həmin şəxsi cərimə gözləyir. Lakin Azərbaycanda bu qadağalar ciddi effekt verməyib, yenə də insanlar siqaretdən yeri gəldi-gəlmədi, dəb xətrinə istifadə edir. Səbəb isə bu sahədə maarifləndirmə işinin zəif olmasıdır. Əgər gənc nəslə bu zərərli vərdişin gələcəkdə törədə biləcəyi fəsadlar haqqında məlumat verilsə, təhsil ocaqlarında, məktəblərdə siqaretin zərərilə bağlı kampanyalar keçirilsə, azyaşlılar və gənclərlə əks tərbiyəvi iş aparılsa, siqaretdən çəkinməyə nail olmaq olar.

Mütəxəssislərin fikrincə, siqareti birdən-birə tərgitmək orqanizmdə digər xəstəliklərin baş qaldırmasına səbəb ola bilər. Ona görə də onu tərgitmək üçün müəyyən mərhələlərdən keçmək lazımdır.

### Tütünsüz dünya iqtisadiyyatı: zərər, yoxsa qazanc?

Əhalisinin 8 milyardı keçdiyi yer kürəsində tütün sektoru ən böyük sənaye sahələrindən biridir. İllik siqaret istehsalından hər birimizə təxminən 100 qutu siqaret düşür. Siqaret satışı 300 milyard dollardan artıq gəlir gətirir və tütün şirkətləri getdikcə böyüyür. Ancaq, bu iqtisadi artım bəşəriyyətin rifahına xidmət etmir.

Dünya Bankı siqaret səbəbli xəstəliklərin maddi nəticələrini, bu xəstəliklər üzündən ortaya çıxan əmək qabiliyyətinin itirilməsini, yanğın ziyanlarını və siqaretə xərclənən pul miqdarını hesablayaraq bunların dünya iqtisadiyyatına 500 milyard dollardan çox ziyan vurduğunu ortaya qoydu. Lakin, bu sahədə vurulan ziyanın hamısını qeydə almaq mümkün olmadığından ekspertlər bu məbləğin ən azı 2-3 dəfə artıq ola biləcəyini qeyd edirlər.

### Günahsız zərərçəkənlər

Alimlərin dediyinə görə, siqaret çəkməməklə ömrü uzatmaq və sağlam yaşamaq olar. Sonuncu siqaretdən sonra 20 dəqiqə ərzində qan təzyiqi normal səviyyəyə çatır. Bir gündən sonra infarkt keçirmə şansı azalır, bir ildən sonra isə ürək xəstəliklərinin inkişaf etməsi riski siqaret çəkən adamla müqayisədə yarıya enir.

Təkcə siqaret çəkən adam deyil, siqaret tüstüsü ilə nəfəs alan adamlar da risk qarşısında olurlar. Alimlər sübut ediblər ki, siqaret çəkən adamlarda rast gəlinən dəhşətli xəstəliklərə siqaret çəkməyən adamlarda da rast gəlinir ki, bu da onların siqaret çəkilən otaqda nəfəs alması ilə bağlıdır. Çünki çəkilən hər siqaretin 25 %-i onu çəkənin orqanizminə hopursa, 50%-i nəfəs alınan havada qalır və tənəffüs zamanı həmin yerdə olanların ciyərlərinə yol tapır. Digər 25% isə yanıb kül olur.

Ümumiyyətlə, Azərbaycanda siqaret reklamının və 18 yaşdan aşağı olan şəxslərə siqaret satışının qadağan olunması, həmçinin qapalı ictimai yerlərdəsi siqaret çəkilməsinə qadağa qoyulması təqdirəlayiq haldır.

**Elçin Bayramlı**

ŞOK FAKTLAR

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb.*

Səs
1 iyun
2022-ci il

# Levandovsi "Barselona" yolunda...



**Almaniyanın "Bavariya" futbol klubunun polşalı futbolçusu Robert Levandovski karyerasını "Barselona"da davam etdirmək istəyir. Bu barədə "Diario Sport" məlumat yayıb. 33 yaşlı hücumçu ilə Kataloniya klubu arasında danışıqlar qabaqcıl mərhələdədir. Tərəflər demək olar ki, razılıq əldə ediblər. Gözlənildiyi kimi, klubla futbolçu arasında danışıqlarda problem olmayacaq. Digər məsələ isə Levandovski ilə 2023-cü ilə qədər müqaviləsi olan "Bavariya"nın mövqeyidir. Münhen klubu hücumçunu buraxmaq istəmir. Ona görə də "Barselona" "Bavariya"nın mövqeyini dəyişməyə məcbur edəcək addımlar atmalı olacaq.**

Polşalı forvard iyunun 14-də Polşa - Belçika matçından sonra "Barselona"ya keçmək istəyir. O, gələcəyinin artıq həll olunduğunu bilərək məzuniyyətə getmək niyyətindədir. Qeyd edək ki, Levandovski 2021/22 mövsümündə "Bavariya"nın heyətində bütün turnirlərdə 50 matçda 46 qol vurub.



# DİQQƏT: Azərbaycanda "Meymun çiçəyi" virusu yayıldı

***"Meymun çiçəyi" xəstəliyi bizim ölkədə və eyni zamanda qardaş adlandırdığımız Türkiyədə də aşkar edilməyib". Bu sözləri SİA-ya açıqlamasında həkim-infeksionist Vasif Əliyev bildirib.***

Onun sözlərinə görə, ilkin olaraq bu xəstəlikdən qorunmaq üçün xəstə olan insanlardan uzaq durmaq lazımdır: "Həmçinin xəstəlik aşkar edilmiş ölkələrə xüsusilə də Afrika ölkələrinə səyahət etmiş insanlar nəzarətə götürülməlidir. Həmin insanlar ən azı 3 həftə nəzarətdə olmalıdır. Çünki o insanlarda yoluxma riski ola bilər. Bununla da əlaqədar olaraq həmin insanlarla münasibətdə olmamaq daha məqsədəuyğundur. Bu xəstəlik gedərək artarsa onu lokalaşdırmaq lazımdır. "Meymun çiçəyi" xəstəliyinin qarşısını almaq üçün peyvənd mövcuddur. Xəstəlik geniş vüsət alarsa peyvənd olunaraq qorunmaq olar. Ona görə ki, zamanında çiçək xəstəliyinin də qarşısı peyvəndlə alınaraq, nəsli kəsilmişdir. Bunlardan əlavə olaraq insanlar özlərində temperatur yüksəkliyi, baş ağrısı və bədənin də suçiçəyinə bənzər səpkilər müşahidə edərsə mütləq həkimə müraciət etməlidirlər. Zamanında tətbiq edilmiş müdaxilə xəstənin həyatını qurtarmaqla, digər insanlara bu xəstəliyi keçirməyin də qarşısını alacaq".

***Banuçiçək Hüseynli***

# Son 3 ayda 378 boşanma...



**Bu il aprelin 1-dək 378 cütlük boşanmaq üçün müraciət edib. SİA-nın məlumatına görə, bunu Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin sədri Aynur Sabitova Ədliyyə Nazirliyi, UNİCEF və Mediasiya Şurasının birgə tərəfdaşlığı ilə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilən Mediasiya prosesləri zamanı ailə mübahisələrinin həllində uşaq hüquqlarının müdafiəsi məsələlərinin aktuallığı mövzusunda keçirilən tədbirdə deyib. O bildirib ki, ötən il boşanmaq üçün 1748 cütlük müraciət edib. "Mediasiya Təşkilatlarının səyi nəticəsində ötən il 268 cütlük boşanmaqdan imtina edib. 2020-ci ildə boşanmaq üçün müraciət edən 1108 cütlükdən 108-i, 2019-cu ildə isə müraciət edən 1269 cütlükdən 254-ü boşanmaqdan imtina edib",- A.Sabitova bildirib.**

# PSJ Poqbadan imtina etdi



***PSJ "Mançester Yunayted"in futbolçusu Pol Poqbanı transfer etməklə bağlı fikrini dəyişib. Qol.az xəbər verir ki, bu barədə "L'Equipe" məlumat yayıb. Paris təmsilçisi əvvəlcə Poqbanı transfer etmək istəsə də, daha sonra fikrini dəyişib. PSJ 29 yaşlı fransalı oyunçuya onun artıq klubun planlarında olmadığını deyib.***

Tərəflər 2 həftə əvvəl görüşərək əməkdaşlıqda maraqlı olduqlarını bildirmişdilər. Qeyd edək ki, "Mançester Yunayted"lə müqaviləsi gələn ay başa çatacaq Poqbanın 2012-2016-cı illərdə oynadığı "Yuventus"a keçməsi gözlənilir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220